Xalqın qəzeti!

# Xalq qəzeti

№ 156 (30850) 30 iyul 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## “Şahdəniz-2” – Azərbaycanı iri qaz ölkəsinə çevirən yataq

*2018-ci il iyulun 30-da bu layihə çərçivəsində hasilata başlanıb*



**Azərbaycanı dünyanın potensial qaz ixracatçısına çevrilmiş “Şahdəniz” yatağı Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verir. “Şahdəniz” Xəzər dənizində indiyədək kəşf edilmiş ən böyük təbii qaz yatağıdır. Təsadüfi deyil ki, zənginliyinə görə yataqların şahı adlandırılan “Şahdəniz”də 1 trilyon kubmerdən çox təbii qaz və 2 milyard barel kondensat ehtiyatları mövcuddur. Dünya səviyyəli bu yataq, həm də BP-nin 117 illik tarixində aşkar edilmiş ən böyük təbii qaz yatağıdır.**

1996-cı ilin iyunun 4-də “Şahdəniz” yatağının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair xarici şirkətlərlə imzalanmış saziş artıq 30-cu ilinə qədəm qoyub. Ötən müddətdə bu tarixi sənəd Xəzər regionunu beynəlxalq əməkdaşlıq meydanına çevirməklə bir sıra dünya səviyyəli enerji layihələrinin də həyata vəsiqə qazanmasına vəsilə olub. Elə XXI əsrin ən böyük “mavi yanacaq” ixracı marşrutlarından sayılan Cənub Qaz Dəhlizi də “Şahdəniz” layihəsinin uğurlu nəticəsidir.

*(ardı 7-ci səhifədə)*

## Murov aşırımını qısaldan layihə

*Toğanalı–İstisu avtomobil yolu sürətlə tikilir*



**Prezident İlham Əliyevin tapşırığına əsasən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən mühüm infrastruktur layihələrindən biri olan 82 kilometrlik Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi 85 faiz icra edilib.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin bu barədə məlumatına əsasən, adı çəkilən magistral Göygöl və Kəlbəcər rayonlarını birləşdirir. Yolun Toğanalı–Kəlbəcər hissəsi 56 kilometr, Kəlbəcər-İstisu hissəsi isə 26 kilometrdir. Yolun 16-cı kilometrindən etibarən Murovdağ silsiləsi başlayır və burada yüksəklik 1700 metrdən 3250 metrə qədər yüksəlir.

*(ardı 7-ci səhifədə)*

## Zəngəzur dəhlizi nifaq deyil, ittifaq meydanı olacaq

### Türkiyə Prezidenti region ölkələrinin bu məsələdə razılığa gələcəklərinə inanır



**Zəngəzur dəhlizinin açılması mövzusu son aylar siyasi gündəmdə öndə gələn əsas mövzulardan biridir. Azərbaycanın qərb rayonlarının Naxçıvan Muxtar Respublikası ilə birbaşa əlaqəsini təmin edəcək bu nəqliyyat marşrutu yalnız bizim ölkə üçün deyil, bütövlükdə Cənubi Qafqaz üçün də strateji və iqtisadi əhəmiyyət daşıyır. Elə bu səbəbdən dəhlizin reallaşması ilə bağlı danışıqlar nəinki regional, eləcə də beynəlxalq müstəvidə böyük maraqla izlənilir.**

*(ardı 4-cü səhifədə)*

## Qərbi Azərbaycan soyqırımları erməni mənbələrində



**Qərb imperializminin XIX əsrdən başlayaraq Anadoluda Ermənistan dövləti yaratmaq niyyətləri Osmanlı dövlətinin ciddi müqaviməti ilə üzləşdikcə, bu plana alternativ olaraq Qafqazda – 2 yerə parçalanmış Azərbaycan torpaqlarının quzeyində xalqımıza qarşı erməni millətçiliyini qızışdırmaq siyasəti işə salınmışdır. Bu düşmənçiliyin və xəyanətin gedişində dövlət himayəsindən məhrum olmuş, özünüqoruma imkanlarını itirmiş Quzey Azərbaycanda xalqımız 1905–1907-ci və 1918–1920-ci illərdə mütəşəkkil erməni terroruna və kütləvi soyqırıma məruz qalmışdır.**

*(ardı 9-cu səhifədə)*

## Qərəzli diplomatiya və yeni kolonial maraqlar



**2025-ci il iyulun 22-də Fransa Milli Assambleyasında irəli sürülən və Ermənistanla “strateji tərəfdaşlıq” qurulmasını təşviq edən Avropa qətnaməsi təşəbbüsü, ilk baxışda parlament diplomatiyası nümunəsi kimi görünə bilər. Lakin sənədin siyasi ruhu və dili onun əsl məqsədini açıq şəkildə üzə çıxarır: qətnamə Cənubi Qafqazın dəyişən güc reallıqları fonunda öz təsir dairəsini itirən bir dövlətin narahatlıq dolu cavabıdır. Fransa bu sənədlə faktiki olaraq özünü vasitəçi və neytral mövqedən uzaqlaşdıraraq bir tərəfin – Ermənistanın açıq şəkildə müdafiəçisinə çevirir. Elə bu addım onun həm ATƏT-in Minsk qrupundakı keçmiş roluna, həm də Avropa İttifaqı (Aİ) müstəvisindəki mümkün vasitəçilik iddialarına xələl gətirir.**

*(ardı 3-cü səhifədə)*

## “Sülh təşəbbüsü”nün arxasında gizlənənlər



səhifə ⇨ 3

## ANCA-nın konsert isterikası



səhifə ⇨ 4

## “Tam gizli” qrifli sənədlər




səhifə ⇨ 6

## Yaralı Qarabağ ağrı görməsin!



səhifə ⇨ 11

# "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Reklam haqqında", "Lisenziyalar və icazələr haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 240-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Reklam haqqında", "Lisenziyalar və icazələr haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 240-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1. "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikası Qanununun 8-2.2-ci maddəsinin birinci cümləsində, 8-2.4-cü maddəsinin birinci və ikinci cümlələrində, 8-2.5-ci, 8-2.6-cı (hər iki halda) və 8-2.7-ci (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 8-2.2-ci maddəsinin birinci cümləsində, 8-2.4-cü maddəsinin ikinci cümləsində, 8-2.5-ci, 8-2.6-cı (ikinci halda) və 8-2.7-ci (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 8-2.4-cü maddəsinin birinci cümləsində, 8-2.6-cı (birinci halda) və 8-2.7-ci (ikinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi nəzərdə tutulur;

1.4. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 19.8-1-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini həmin Qanunun 2 nömrəli əlavəsinin 8-ci maddəsində nəzərdə tutulmuş fəaliyyət növünə münasibətdə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi həyata keçirir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, kazino oyunlarının təşkili və keçirilməsi ilə bağlı normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bir ay müddətində aşağıdakı normativ hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.2.1. "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikası Qanununun 8-2.2-ci maddəsinin birinci cümləsinə, 8-2.4-cü maddəsinin ikinci cümləsinə, 8-2.5-ci və 8-2.6-cı maddələrinə uyğun olaraq, kazino oyunlarının təşkili və keçirilməsi üçün xüsusi ayrılan yerlərə dair tələbləri, kazino oyunlarının təşkili üçün lisenziya verilməsinin şərtlərini (tələblərini), kazino oyunlarının təşkili və keçirilməsi qaydasını, habelə kazino oyunlarının operatoruna dair tələbləri;

2.2.2. həmin Qanunun 8-2.7-ci maddəsinə uyğun olaraq, kazino oyunlarının təşkili və keçirilməsinə nəzarət qaydasını;

2.3. "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Reklam haqqında", "Lisenziyalar və icazələr haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 240-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3** Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 19.8-1-ci maddəsinin üçüncü cümləsinə uyğun olaraq, həmin Qanunun 2 nömrəli əlavəsinin 8-ci maddəsində nəzərdə tutulmuş fəaliyyət növünə münasibətdə lisenziya müqaviləsinin formasını və bağlanılma qaydasını bir ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**4** "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 671 (Cild I); 2024, № 7, maddələr 788, 806, № 8, maddə 950; 2025, № 5, maddə 450) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.3.6-cı yarımbənddən "həyata keçirir" sözləri çıxarılsın;

4.2. aşağıdakı məzmunda 2.3.7-ci yarımbənd əlavə edilsin:

"2.3.7. həmin Qanunun 2 nömrəli əlavəsinin 8-ci maddəsində nəzərdə tutulmuş lisenziya tələb olunan fəaliyyət növü üzrə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi həyata keçirir.";

4.3. 2.7-ci bənddən "isə" sözü çıxarılsın və həmin bəndə "Nəqliyyat Nazirliyi" sözlərindən sonra ", həmin Qanunun 2 nömrəli əlavəsinin 8-ci maddəsində nəzərdə tutulmuş fəaliyyət növünə münasibətdə isə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi" sözləri əlavə edilsin.

**5.** "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1841 (Cild I); 2024, № 8, maddə 938, № 12 (II kitab), maddə 1373) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3-cü hissədə "156" rəqəmləri "165" rəqəmləri ilə, "68" rəqəmləri "77" rəqəmləri ilə əvəz edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə" üzrə:

5.2.1. 2.0.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

5.2.2. aşağıdakı məzmunda 2.0.7-ci, 2.0.8-ci və 3.0.30-8–3.0.30-10-cu yarımbəndlər əlavə edilsin:

"2.0.7. qanunla müəyyən edilmiş hallarda və qaydada sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya vermək, lisenziya şərtlərinə riayət olunmasına nəzarət etmək;

2.0.8. kazino oyunlarının təşkili və keçirilməsinə nəzarət etmək.";

"3.0.30-8. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, kazino oyunlarının təşkili üçün lisenziya vermək, lisenziya şərtlərinə riayət olunmasına nəzarət etmək;

3.0.30-9. qanunla müəyyən edilmiş hallarda və qaydada lisenziya müqaviləsinin formasını və bağlanılma qaydasını müəyyən etmək, lisenziya müqaviləsi bağlamaq;

3.0.30-10. qanuna uyğun olaraq kazino oyunlarının keçirilməsi üçün kazino oyunları operatorunun cəlb edilməsinə dair müqavilələrin bağlanılmasına razılıq vermək;".

**6** "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 90 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (I kitab), maddə 656) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.1-ci bənddə "və 9-cu maddəsində" sözləri ", 8-2.2-ci maddəsinin birinci cümləsində, 8-2.4-cü maddəsinin birinci və ikinci cümlələrində, 8-2.5-ci, 8-2.6-cı (hər iki halda), 8-2.7-ci (hər iki halda) və 9-cu maddələrində" sözləri ilə əvəz edilsin;

6.2. 1.2-ci bəndə "6.3-cü" sözlərindən sonra ", 8-2.2-ci maddəsinin birinci cümləsində, 8-2.4-cü maddəsinin ikinci cümləsində, 8-2.5-ci, 8-2.6-cı (ikinci halda), 8-2.7-ci (birinci halda)" sözləri əlavə edilsin;

6.3. 1.6-cı bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.7-ci bənd əlavə edilsin:

"1.7. həmin Qanunun 8-2.4-cü maddəsinin birinci cümləsində, 8-2.6-cı (birinci halda) və 8-2.7-ci (ikinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 iyul 2025-ci il**

# Lerik rayonunun Hamarmeşə–Bibiyani avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Bir min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Hamarmeşə–Bibiyani avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 2,0 (iki) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 iyul 2025-ci il**

# Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 806 (Cild I); 2025, № 4 (I kitab), maddə 379) ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın "8. Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Əsas icraçı orqan (qurum)" sütununa "(qurum)" sözündən sonra "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri əlavə edilsin;

1.2. 8.1.6-cı yarımbəndin "Əsas icraçı orqan (qurum)" sütununa "DGK" akronimindən sonra ", RİNN, AAYDA, ADY" akronimləri əlavə edilsin;

1.3. 8.5.2-ci yarımbəndin "Digər icraçılar" sütununa "DTA" akronimindən sonra ", ETN" akronimi əlavə edilsin;

1.4. 8.7.5-ci yarımbəndin "Əsas icraçı orqan (qurum)" sütununa "NMR NK" akronimindən sonra ", AAYDA" akronimi əlavə edilsin;

1.5. "AKRONİMLƏR VƏ İXTİSARLAR" hissəsinə "ADSEA – Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözlərindən əvvəl "AAYDA – Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 iyul 2025-ci il**

# Azərbaycan–Braziliya parlament əməkdaşlığı müzakirəsi




**Milli Məclisin sədri Sahibə Qafarova İsveçrəyə işgüzar səfəri çərçivəsində Cenevrədə Braziliya Federativ Respublikası Deputatlar Palatasının sədri Huqo Motta ilə görüşüb.**

Görüşdə ölkələrimiz arasında coğrafi uzaqlığa baxmayaraq, həm ikitərəfli, həm də çoxtərəfli əsasda əlaqələrin daha da genişləndirilməsi üçün imkanlar mövcud olduğu qeyd edilib. 2023-cü ildə ölkələrarası diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünün tamam olduğu xatırlanaraq, yüksəksəviyyəli əlaqələr fonunda parlamentlərimiz arasında da yaxşı münasibətlərin mövcud olduğu vurğulanıb.

Söhbət zamanı Parlament Sədrlərinin VI Dünya Konfransının qanunverici orqanlar arasında ortaq maraqlar üzrə fikir mübadiləsi aparmaq baxımından mühüm bir platforma olduğu qeyd edilib. Hər iki ölkənin parlamentlərində fəaliyyət göstərən dostluq qrupları arasında mövcud olan sıx təmaslardan məmnunluq ifadə edilib. Eyni zamanda, keçirilən görüşlərin və aparılan siyasi dialoqun parlamentlərarası münasibətlərin daha da dərinləşməsinə xidmət etdiyi bildirilib.

COP30-un Braziliyada keçiriləcəyi xatırladılaraq, Azərbaycanın ötən il COP29-a uğurla evsahibliyi etdiyi vurğulanıb. Braziliyada COP30 çərçivəsində keçiriləcək Parlament konfransının təşkili ilə bağlı təcrübə mübadiləsi və əməkdaşlıq imkanları ətrafında da fikir mübadiləsi aparılıb.

*

Milli Məclisin sədri Sahibə Qafarova iyulun 29-da Cenevrədə Parlament Sədrlərinin 6-cı Dünya Konfransının Hazırlıq Komitəsinin yekun iclasında iştirak edib.

Parlamentlərarası İttifaqın prezidenti Tulia Akson iclasın gündəliyi haqqında məlumat verib. Qeyd olunub ki, konfransa ümumilikdə 120 nümayəndə heyəti, o cümlədən 102 ölkənin parlament sədrləri qatılıblar.

Tədbirdə Konfransa hazırlıqla bağlı görülən işlər, Komitənin sonuncu iclasının hesabatı, Dünya Konfransının yekun sənədinin qəbul olunması və digər təşkilati məsələlər haqqında fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 dekabr tarixli 901 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 dekabr tarixli 901 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1944 (Cild I) ilə təsdiq edilmiş "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissə üzrə:

1.1.1. 1.1-ci bənddən "və bu Qaydanın 1.3-cü bəndinə uyğun olaraq müəyyən edilən bölgüdə nəzərdə tutulan" sözləri çıxarılsın;

1.1.2. 1.4-cü bənd 1.5-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 1.4-cü bənd əlavə edilsin:

"1.4. Dövlət sifarişi ilə təyinatlı tədbirlər publik hüquqi şəxsin tabe olduğu dövlət orqanının (qurumun) büdcədənkənar vəsaitləri hesabına həyata keçirilə bilər.";

1.2. 2-ci hissə üzrə:

1.2.1. 2.1-1-ci bənd ləğv edilsin;

1.2.2. 2.7-ci bənddə "bank" sözü "xəzinə" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 iyul 2025-ci il**

# “Sülh təşəbbüsü”nün arxasında gizlənənlər

**Bu gün Azərbaycan Ermənistana təkcə sülh deyil, həm də geniş regional əməkdaşlıq təklif edir. Söhbət iqtisadi layihələrdən və qarşılıqlı etimadın bərpasından gedir. Bakı ardıcıl olaraq uzunmüddətli sabitlik və davamlı inkişaf maraqlarından çıxış edir. Lakin konstruktiv təşəbbüslərlə yanaşı, Qərbdə əldə edilmiş razılaşmaları pozmağa çalışan, regionda sülh prosesinə kölgə salan, təhlükəli ideyaları irəli sürən bəzi dairələr mövcuddur. Bunların əksəriyyəti erməni lobbisinin maliyyə dəstəyi ilə fəaliyyət göstərən və onların sifarişlərini həyata keçirən deputatlar, konqresmenlər və senatorlardır.**

Belə şəxslər arasında İsveçrənin qanunverici orqanında təmsil olunan, Xristian Demokratik Xalq Partiyasından 19 nəfərlik bir qrup da var. Onlar “ermənilərin Qarabağa qayıtmasına dəstək komitəsi” yaradaraq onu “İsveçrə Sülh Təşəbbüsü” adlandırıblar. Ardınca müxtəlif xristian təşkilatları ilə əlaqələr qurublar. Bu təşkilatlardan biri də Beynəlxalq Xristian Həmrəyliyidir. Təşkilat “120 min erməninin Qarabağdan qovulması” və “etnik təmizləmə” iddiaları ilə çıxış edir.



Xristian təşkilatlarla əməkdaşlıq taktiki dəyişiklikdən xəbər verir. Donald Trampın ABŞ-da növbəti prezident seçkilərində qalib gəlməsi fonunda erməni lobbisi öz siyasi fəaliyyətini liberal düşərgədən mühafizəkar dəyərləri önə çəkən dairələrə, yəni, kilsənin təsirli olduğu mühitə daşıyıb. Nəticədə, erməni lobbisi artıq “demokratiya və insan haqları” terminlərini yox, “xristian azlıqların hüquqları” və “xristian irsi” kimi anlayışları önə çıxarır. Bu təşəbbüslər zahirən barış və qarşılıqlı anlayış görüntüsü yaratsa da, əslində, Azərbaycanla Ermənistan arasında gedən normallaşma prosesini pozmaq məqsədi daşıyır. Regionda hər dəfə müsbət istiqamətdə irəliləyiş baş verəndə dərhal bu kimi “sülhməramlı” təşəbbüslər meydana çıxır. Onların məqsədi barışı təşviq etmək deyil, əksinə, yeni münaqişə ocaqları yaratmaq və qarşıdurmanı uzatmaqdır.

Xüsusilə bu təşəbbüslərdə təhrif olunan əsas məsələlərdən biri Qarabağdan çıxmış erməni əhalinin durumu ilə bağlıdır. Beynəlxalq miqyasda bu insanların, guya, zorla qovulduğu iddia olunur. Halbuki, bu, tamamilə əsassız, faktlara söykənməyən fərziyədir. 2023-cü ilin payızında Azərbaycan öz ərazi bütövlüyünü tam bərpa etdikdən sonra Qarabağda yaşayan ermənilər bölgəni könüllü şəkildə tərk ediblər. Azərbaycan dövləti onların təhlükəsiz köçü üçün humanitar dəhlizlər yaradıb və bu prosesdə heç bir zorakılıq və ya təzyiq faktı qeydə alınmayıb.

Əksinə, Azərbaycan rəsmi şəkildə dəfələrlə bəyan edib ki, bölgədə qalmaq və Azərbaycan vətəndaşı kimi yaşamaq istəyən ermənilərə bərabər hüquqlar veriləcək və onların təhlükəsizliyi təmin olunacaq. Yəni bu insanlar nə qovulub, nə də təzyiqlə çıxarılıb. Onların çıxışı könüllü şəkildə baş verib. Bunu Qarabağı tərk etmiş ermənilərin özləri də dəfələrlə etiraf ediblər.

Ermənilərin bölgəni tərk etməsində əsas rol oynayan isə Ermənistan daxilindəki revanşist dairələr, erməni diasporası və separatçı qruplar olub. Onlar sistemli şəkildə qorxu, dezinformasiya və təbliğat yayaraq bölgədəki erməni əhalini getməyə sövq ediblər. Onlar hardansa komanda almış kimi, kütləvi şəkildə Xankəndini tərk ediblər. Və bütün baş verənlər televiziya çəkilişlərində, videolarda və başqa çəkilişlərdə öz əksini tapıb. Buna baxmayaraq, bu könüllü köç beynəlxalq mediada və bəzi siyasi dairələr tərəfindən bilərəkdən “etnik təmizləmə” kimi təqdim olunur. Bu, faktların təhrifidir və Azərbaycana qarşı siyasi təzyiq vasitəsi kimi istifadə olunur. Halbuki, bu iddiaların heç bir hüquqi və faktiki əsası yoxdur. Çünki Azərbaycan tərəfi bu şəxslərin könüllü şəkildə bölgəni tərk etdiyini, humanitar dəhlizlərin yaradıldığını, zorakılığın və ya məcburi köçürmənin baş vermədiyini konkret sübutlarla ortaya qoyub.



Burda bir fakta da diqqət yetirmək lazımdır. O da Qarabağı tərk edən ermənilərin sayı ilə bağlıdır. Söhbət 120 min (?) ermənidən gedir. Əslində, 120 min yalanı sonradan dövriyyəyə buraxılıb. **Bu barədə politoloq Cəsarət Hüseynzadə XQ-yə** bildirdi ki, haylar miqyası böyütməklə Azərbaycana qarşı təzyiqləri çoxaltmağı düşünür və hansısa məkrli planların qurulması üçün əsas yaratmağa çalışırlar: “Burada həm də korrupsiya elementi var. Ona görə ki, 120 min rəqəmini səsləndirməklə “qaçqınlar” adına ayrılacaq yardımların və maliyyə vəsaitlərin artırılması və sonradan bunun mənimsənməsi planı açıq şəkildə görünür.

Ən maraqlı məqamlardan biri də beynəlxalq yanaşmalarda müşahidə olunan aşkar birtərəflilikdir. Son illərdə Qarabağdan çıxmış erməni əhalinin hüquqları beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə çevrilir. Bununla yanaşı, nə qədər təəssüf doğurucudur ki, beynəlxalq masalarda səslənən bəyanatlarda və sülh təşəbbüslərində eyni həssaslıq Qərbi Azərbaycandan zorla və amansız şəkildə qovulmuş yüz minlərlə azərbaycanlının taleyinə münasibətdə nümayiş etdirilmir. Bu şəxslərin hüquqları, onların üzləşdiyi etnik təmizləmə və humanitar faciə, demək olar ki, beynəlxalq ictimaiyyətin laqeydliyi fonunda unutdululmağa çalışılır.

1988–1991-ci illərdə Ermənistanın azərbaycanlı əhalisinə qarşı sistematik və planlı şəkildə həyata keçirdiyi təmizləmə siyasəti nəticəsində təxminən 250 min azərbaycanlı öz doğma yurdlarından qovulub. Bu proses zamanı azərbaycanlılara qarşı kütləvi zorakılıq, qətliamlar, işgəncələr törədilib, evlər yandırılıb, qəbiristanlıqlar, məscidlər və digər mədəni-dini abidələr yerlə-yeksan edilib. Bu hadisələr BMT-nin soyqırımı, etnik təmizləmə və zorla köçürmə ilə bağlı qəbul etdiyi prinsiplərə tam uyğun gələn cinayətlərdir. Lakin təəssüf ki, bu cinayətlərə münasibətdə Avropa Parlamenti, BMT qurumları, digər beynəlxalq təşkilatlar illərdir sükut nümayiş etdirir. Hətta bu insanların öz yurdlarına qayıdış hüququ belə heç bir beynəlxalq sənəddə xüsusi qeyd olunmur. Bu isə münaqişəyə dair beynəlxalq yanaşmaların nə qədər selektiv, ədalətsiz və ikili standartlara əsaslandığını açıq şəkildə göstərir.

Əgər bölgədə həqiqi barış və davamlı sülh qurulması hədəflənirsə, bu, birtərəfli narrativlər və seçici yanaşmalarla deyil, tarixi reallıqların və faktların tam və obyektiv şəkildə tanınması ilə baş verə bilər”.

Onu da qeyd edək ki, İsveçrə parlamentarilərinin təqdim etdiyi “sülh təşəbbüsü”nün özü də müstəqil təşəbbüs təsiri bağışlamır. Layihənin ideyası, təbliğatı və logistikası açıq şəkildə erməni lobbisinin təsiri altında hazırlanıb. Bu da təşəbbüsün əsas məqsədinin barış deyil, siyasi maraqlara xidmət etdiyini sübut edir.

Belə təşəbbüslərin reallıqla heç bir əlaqəsi yoxdur və onların məqsədi bölgədə əməkdaşlığı inkişaf etdirmək deyil, Azərbaycanın legitim mövqeyinə qarşı beynəlxalq aləmdə təzyiq formalaşdırmaqdır. Əgər doğrudan da regionda davamlı sülhün qurulması hədəflənirsə, yanaşmalar obyektiv və balanslı olmalıdır.

Hazırda Azərbaycan təkcə sülhü deyil, həm də Cənubi Qafqazda davamlı sabitliyi və firavanlığı təmin edə biləcək genişmiqyaslı regional əməkdaşlıq platformasını Ermənistana və region ölkələrinə təklif edir. Bu əməkdaşlıq nəqliyyat dəhlizlərinin açılması, iqtisadi layihələrin həyata keçirilməsi, xalqlar arasında etimadın bərpası kimi mühüm istiqamətləri əhatə edir. Azərbaycanın bu çağırışı təsadüfi deyil. O, uzunmüddətli sabitlik və davamlı inkişaf maraqlarından çıxış edir. Lakin bu prosesin uğurla nəticələnməsi üçün birtərəfli və manipulyativ yanaşmalardan imtina olunmalıdır.

Təəssüf ki, bəziləri öz məsuliyyətini gizlədərək, özlərini haqsız yerə qurban kimi təqdim etməyə çalışır, digərləri isə başqalarının taleyi üzərindən siyasi dividend qazanmağa cəhd edir. Belə bir vəziyyətdə nə ədalətli yanaşmadan, nə də davamlı sülhdən danışmaq mümkündür.

Məhz bu səbəbdən İsveçrədə “təşəbbüs” adı altında irəli sürülən planı səmimi və sülhpərvər niyyət kimi qəbul etmək mümkün deyil. Bu, sülh maskası altında ikili standartların və siyasi riyakarlığın nümayişidir. Bu cür təşəbbüslər Cənubi Qafqazı yenidən keçmişin qaranlıq səhifələrinə – gərginlik, qarşıdurma, etimadsızlıq və yalanın hökm sürdüyü bir dövrə qaytarmaq təhlükəsi yaradır. Halbuki regionun gələcəyi qarşılıqlı anlaşma, tarixi həqiqətin qəbul edilməsi və hamı üçün ədalətin təmin olunması yolu ilə mümkün ola bilər.

Azərbaycan bu yolun tərəfdarıdır və bu istiqamətdə öz prinsipial və ardıcıl mövqeyini qorumaqda qərarlıdır. Bu mövqe yalnız milli maraqlara deyil, həm də beynəlxalq hüquqa, regional sabitlik və inkişaf perspektivlərinə əsaslanır. Azərbaycan bu yolda tək deyil – haqq, hüquq və ədalət onun tərəfindədir. Regionun gələcəyi məhz bu prinsiplərə əsaslanan səmimi əməkdaşlıqdan keçir.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Qərəzli diplomatiya və yeni kolonial maraqlar



(əvvəli 1-ci səhifədə)

Qətnamənin təqdimatı və məzmunu bir daha göstərir ki, Fransa bu sənədi siyasi diplomatik dialoqu təşviq edən, hüquqi çərçivəyə söykənən bir akt kimi deyil, daha çox emosional, qərəzli və konfrontativ ritorikanın aləti kimi təqdim edir. Qətnamənin leksikonuna nəzər saldıqda, burada beynəlxalq hüququn əsas anlayışları – suverenlik, ərazi bütövlüyü, qarşılıqlı hörmət – ya ümumiyyətlə nəzərə alınmır, ya da məqsədli şəkildə təhrif olunur. Əvəzində isə “Artsax”, “etnik təmizləmə”, “mədəni irsin məhv edilməsi” kimi emosional yüklü, lakin hüquqi cəhətdən qeyri-real və beynəlxalq sənədlərdə tanınmamış anlayışlara geniş yer verilir.

Sənədin əsas istinad qaynağı hüquq deyil, siyasi emosiyadır; onun məntiqi analizə deyil, ideoloji loyallığa söykənir. Məhz bu səbəbdən qətnaməni siyasi diplomatiya aktı adlandırmaq çətindir – o, daha çox strateji balanssızlığın və kolonial nostaljilərlə yüklü bir zehniyyətin məhsuludur. Fransa Assambleyasının bəzi üzvləri, xüsusilə Ermənistanla dostluq qrupuna daxil olan şəxslər bu sənədlə ictimai rəyə təsir göstərmək və informasiya müharibəsində mövqe qazanmaq istəyirlər. Onlar üçün Ermənistanla tərəfdaşlıq çağırışı daxili siyasi maraqları pərdələyən simvolik manevr, Fransa cəmiyyətindəki erməni diasporunun dəstəyini qorumaq və daxili siyasi kapital qazanmaq üçün bir vasitədir.

Üstəlik, qətnamənin dili bir daha göstərir ki, sənəd beynəlxalq münasibətlərdə hüquqi yanaşmalara deyil, mifoloji təsəvvürlərə və birtərəfli narrativlərə söykənir. “Minillik torpaqlar”, “öz müqəddəratını təyin edən erməni xalqı”, “siyasi məhbuslar” kimi ifadələr emosiyaların dilidir. Onlarn bu addımı Cənubi Qafqaz regionunda sülhün və etimadın formalaşması prosesinə ciddi zərbədir.

Fransa–Ermənistan dostluq qrupunun rəhbəri Loran Vokyen və onun müavini Aleksandr Martenin təşəbbüsü ilə Milli Assambleyada irəli sürülən qətnamə, zahirən “sülh səylərinə dəstək” adı ilə təqdim olunsa da, bu ritorika, əslində, siyasi manipulyasiyanın klassik formasıdır. Qətnamənin daxilindəki çağırışlar və vurğular onun real niyyətini ifşa edir: sənəd sülh prosesinin təşviqi deyil, Azərbaycanı beynəlxalq aləmdə təcrid etməyə, regionda yaranmış yeni reallıqları sual altına almağa və Fransanın birtərəfli mövqeyini institusional səviyyədə möhkəmləndirməyə hesablanıb. Qətnamə, eyni zamanda, Fransanın siyasi tərəfkeşliyə xidmət edən diplomatiyasının açıq göstəricisidir.

Assambleya səviyyəsində bu qətnamənin təşəbbüskarlarının siyasi keçmişi, mövqeləri və ritorikaları da göstərir ki, onların məqsədi neytral və hüquqa söykənən vasitəçilik deyil, konkret bir tərəfi – Ermənistanı – açıq şəkildə müdafiə etməkdir. Ümumiyyətlə, bu qətnamə Fransa kimi ölkənin Aİ-də və beynəlxalq münasibətlər sistemində üzərinə götürdüyü obyektivlik və balanslı yanaşma öhdəliyinə tamamilə ziddir. Qətnamənin təqdimatı və strukturu onu sübut edir ki, burada məqsəd diplomatik həqiqətlərə əsaslanan siyasət yürütmək deyil, daxili ictimai rəyə təsir göstərmək, informasiya məkanında Azərbaycan əleyhinə kampaniyanı qanunverici institutlar vasitəsilə legitimləşdirməkdir.

Məhz bu yanaşma, Fransa tərəfindən Cənubi Qafqazda artıq köhnəlmiş, iflasa uğramış Minsk qrupu mexanizminin xəyalını diriltmək cəhdini də xatırladır. Halbuki postmüharibə dövründə regional reallıqlar tamamilə dəyişib: Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq öz ərazi bütövlüyünü bərpa edib, Ermənistan isə yeni reallıqları qəbul etdiyini dəfələrlə bəyan edib. Mövcud fonda Fransa parlamentinin separatçı ritorikanı diriltmək cəhdləri, sadəcə, təhlükəlidir. Bu, regionda sülh və əməkdaşlıq üçün yaranan zəif inamın tamamilə sarsıdılmasına gətirib çıxara bilər.

Qətnamədə istifadə olunan terminlər – “Artsax siyasi məhbusları”, “Artsax respublikası”, “minillik torpaqlardan qovulmuş erməni əhalisi” – beynəlxalq hüquq çərçivəsində heç bir statusa malik deyil. Həmin anlayışlar nə BMT-nin, nə ATƏT-in, nə də digər beynəlxalq təşkilatların sənədlərində tanınır. Onların Fransanın parlament səviyyəsində rəsmiləşdirilməsi simvolik və ideoloji xarakter daşıyır. Bunlar, əslində, erməni diasporasının illərlə qurduğu mifoloji konstruksiyaların rəsmi siyasi diskursa daşınması, Fransa Assambleyasının isə bu prosesdə alətə çevrilməsidir.

Daha da paradoksal olan budur ki, Ermənistanın özü belə artıq bu ritorikanı bir kənara qoyaraq sülh gündəliyinə yönəlmiş, Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu rəsmən tanımış, separatçılıq ritorikasından uzaqlaşmaq istiqamətində irəliləmişdir. Belə olan halda Fransa parlamentinin bu cür qondarma terminologiyalara istinad etməsi İrəvanın rəsmi mövqeyinə də ziddir.

Eyni zamanda, bu yanaşma Fransa diplomatiyasının obyektivlikdən uzaq, müasir geosiyasi trendlərlə uyğunlaşmayan, postkolonial nostalji ilə formalaşmış xətt üzərində hərəkət etdiyini təsdiqləyir. Siyasi analitik müstəvidə bu, təkcə Azərbaycan–Fransa münasibətlərinə deyil, ümumilikdə Qərbin Cənubi Qafqazdakı vasitəçi roluna və inamına zərbə vuran presedent kimi dəyərləndirilə bilər.



Qətnamənin əsas tezisləri Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini hədəfə alır. Həm regionda müharibədən sonrakı reallıqları, həm də Azərbaycanın beynəlxalq hüquq çərçivəsində həyata keçirdiyi daxili təhlükəsizlik tədbirlərini “etnik təmizləmə”, “mədəni irsin məhv edilməsi” kimi əsassız və təxribat xarakterli ittihamlarla təqdim etməyə çalışır. Ermənistanın müharibədən sonra etiraf etdiyi və bir neçə dəfə təsdiqlədiyi şəkildə, Qarabağ Azərbaycanın suveren ərazisidir və burada hər hansı “Artsax respublikası” anlayışı yoxdur.

Siyasi məhbuslar məsələsində irəli sürülən ittihamlar da hüquqi baza və beynəlxalq mexanizmlərlə tərs mütənasibdir. Azərbaycan ərazisində qanunsuz silahlı dəstələrin üzvləri, suverenliyimizə qarşı çıxan şəxslər və onların rəhbərləri barəsində aparılan məhkəmə prosesi beynəlxalq hüquqa əsaslanır və bu, daxili hüquqi prosesin ayrılmaz hissəsidir. Fransa parlamentinin bu məsələni “qeyri-qanuni məhkəmə” kimi təqdim etməsi isə həm ölkəmizin məhkəmə sisteminə açıq hörmətsizlik, həm də diplomatik protokollara ziddir.

Qətnamədə beynəlxalq hüququn mühüm prinsipi olan “xalqların öz müqəddəratını təyinetmə hüququ”na istinad edilməsi də manipulyativ şəkildə təqdim olunub. Beynəlxalq hüququn bu prinsipi ərazi bütövlüyü prinsipindən üstün tutula bilməz və BMT nizamnaməsinə görə, müstəqil dövlətlərin ərazisində yaşayan etnik qrupların özbaşına separatizmə getmək hüququ yoxdur.

Bütün bu ritorikaya rəğmən, Fransa hökumətinin bu qətnaməyə hansı səviyyədə dəstək verəcəyi hələ bəlli deyil. Çünki bu təşəbbüs ilk növbədə Assambleya daxilində radikal və erməni diasporunun təsiri altına düşmüş siyasi qrupların populist təşəbbüsüdür. Onun hüquqi nəticələr doğuracağı ehtimalı çox zəifdir, lakin informasiya savaşında və diplomatik müstəvidə mənfi təsir potensialı yüksəkdir.

Fransanın bu qətnamə ilə Ermənistana strateji tərəfdaşlıq təklif etməsi və Aİ-nin vasitəçiliyinə çağırış etməsi, əslində, riyakarlığın ikiqat dozasıdır. Bir tərəfdən, Fransa özü tərəfkeş mövqedən çıxış edir, digər tərəfdən isə Aİ-ni neytral vasitəçi kimi təsvir edir. Halbuki Azərbaycanın etimadı qazanmaq üçün vasitəçi olan ölkə və ya institut minimum obyektivlik nümayiş etdirməlidir. Əks halda, bu, sadəcə olaraq, vasitəçiliyin deyil, qarşı tərəfin dili ilə danışmağın göstəricisinə çevrilir.

Son olaraq qeyd etmək istərdik ki, qətnamənin fonunda bir daha aydın olur ki, Fransanın Cənubi Qafqaz siyasəti heç də regional sabitliyə deyil, geosiyasi təsir uğrunda yürüdülən və kolonial keçmişin təsirindən qurtula bilməyən ambisiyalara söykənir. Ermənistanı “təhlükədə olan tərəfdaş” kimi təqdim etmək Fransa cəmiyyətindəki erməni diasporunun səslərini və dəstəyini qorumağa xidmət edir. Onların bu addımı dövlət siyasətindən çox daxili maraqların diktə etdiyi xəttin göstəricisidir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Zəngəzur dəhlizi nifaq deyil, ittifaq meydanı olacaq




(əvvəli 1-ci səhifədə)

Rəsmi Bakının dəhlizlə bağlı mövqeyi dəyişməyib. Azərbaycan 5 ildə bu istiqamətdə vacib addımlar atıb. Ermənistan və İranla sərhədin qovuşuğuna qədər dəmir yolunun inşası başa çatmaq üzrədir. III Şuşa Qlobal Forumundakı çıxışında Prezident İlham Əliyev bəyan etdi ki, bizim ərazidə heç bir operator, heç bir ticarətçi, heç bir icarədar ola bilməz: "Zəngəzur dəhlizi arteriya kimi bir çox ölkələri birləşdirəcək. Yəni söhbət beynəlxalq tranzit dəhlizdən gedir". Bu mövzu Əbu-Dabi görüşünün gündəliyində də yer almışdı.

Son vaxtlar Türkiyə, İran, Rusiya və Avropa ölkələri tərəfindən verilən nikbin açıqlamalar Zəngəzur dəhlizinin ilin sonuna qədər açıla biləcəyi ehtimalını ortaya çıxarıb.

*

Türkiyə hökuməti bu beynəlxalq tranzit dəhlizinə qoşulmaqdan ötrü dünyanın aparıcı maliyyə qurumlarından çoxmilyardlıq kredit alıb. Bundan bir qədər əvvəl "Anadolu" agentliyinin yaydığı xəbərdə deyilirdi ki, Türkiyənin Maliyyə və Xəzinədarlıq Nazirliyi "MUFG Bank"ın rəhbərlik etdiyi beynəlxalq kreditorlar konsorsiumu ilə Qars–İğdır–Aralık–Dilucu dəmir yolu layihəsinin maliyyələşdirilməsinə dair sazişlər imzalayıb. Sazişə əsasən, Ankaraya Qarsdan Naxçıvana dəmir yolu xəttinin çəkilməsi üçün 2,4 milyard avro həcmində maliyyə vəsaiti ayrılacaq. Kredit İsveçin EKN İxrac Kredit Agentliyinin, Avstriyanın OeKB bankının və İslam İnkişaf Bankında İnvestisiyaların və İxrac Kreditlərinin Sığortalanması üzrə İslam Korporasiyasının zəmanətləri ilə veriləcək.

Məlumatda o da qeyd olunur ki, kreditin alınması ilə bağlı danışıqlar Türkiyənin Maliyyə və xəzinədarlıq naziri Mehmet Şimşəkin Londonda İslam İnkişaf Bankının təşkil etdiyi kreditorlar sammitində iştirakı çərçivəsində aparılıb. Beləliklə, razılaşmaya əsasən, Qars–İğdır–Aralık–Dilucu dəmir yolu xəttinin tikintisi layihəsini beynəlxalq kreditorlar maliyyələşdirəcək. Bu isə o deməkdir ki, rəsmi Ankara Zəngəzur dəhlizi ilə bağlı Bakıya verdiyi sözün üstündə durur. Layihənin icraçısı rolunda Türkiyənin Nəqliyyat və İnfrastruktur Nazirliyi çıxış edəcək.

Beləliklə, Türkiyə dəmir yollarının Naxçıvana birləşdirilməsi layihəsi Asiya ilə Avropanı birləşdirən və Zəngəzur dəhlizinin daxil olduğu Orta Dəhlizinin tərkib hissələrindən birinə çevrilir. Ankaranın bu layihəni maliyyələşdirməsi onu göstərir ki, Türkiyə Bakı ilə İrəvan arasında Zəngəzur marşrutu ilə bağlı tezliklə razılığın əldə olunacağına inanır. Bu arada dəhlizin 100 il müddətinə ABŞ-ın özəl şirkətinə icarəyə verilməsi ideyası da maraqlı diskussiyaya səbəb oldu. Ankaranın dəstəklədiyi plana əsasən, Ermənistan vasitəsilə Azərbaycanı Naxçıvanla birləşdirən 43 kilometrlik dəmir yolu və avtomobil yolunun idarəçiliyi ABŞ şirkətinə verilə bilər. Ermənistanın baş naziri Nikol Paşinyan dəhlizin idarə olunması ilə birgə erməni–amerikan şirkəti variantını istisna etməyib. Bakının bu ideyaya münasibəti birmənalı oldu: "Zəngəzur dəhlizi vasitəsilə Naxçıvanla maneəsiz əlaqə təmin edilməlidir".

*

Yerli ekspertlər Zəngəzur dəhlizinin ABŞ şirkətinə icarəyə verilməsi ehtimalının az olduğunu düşünürlər. Onlar buna səbəb kimi İran və Rusiyanın bu layihəyə mümkün aqressiv reaksiyasını göstərirlər. İranın siyasi dairələri bu planın gerçəkləşməsinin İslam Respublikasının şimal sərhədləri boyunca "geosiyasi tarazlığın dəyişməsinə" səbəb olacağını düşünürlər. Zəngəzur dəhlizi ilə bağlı Tehranın əsas narahatlığı ondan ibarətdir ki, bu layihə Türkiyənin bölgədə təsirini daha da genişləndirə və ABŞ-ın mövcudluğunu təmin edə bilər. Bu ehtimalı irəli sürən Almaniya Beynəlxalq və Təhlükəsizlik Məsələləri İnstitutunun elmi işçisi Həmidreza Əzizi həm də xəbərdarlıq edir ki, bu ssenari "İranı Ermənistan vasitəsilə Cənubi Qafqaza quru yolla təbii çıxışdan məhrum edəcək, ölkəni Azərbaycan və ya digər beynəlxalq aktorlar tərəfindən idarə olunan marşrutdan asılı vəziyyətə salacaq". Əzizi Zəngəzur dəhlizinin açılmasını Tehran üçün "tabutdakı son mismara" bənzədir. Başqa bir ekspert layihəni Tehranın "geosiyasi boğulması" kimi xarakterizə edib.

İrəvan Regional Araşdırmalar Mərkəzinin direktoru Riçard Kirakosyan isə öz növbəsində hesab edir ki, Zəngəzur dəhlizinə istənilən kənar nəzarət – istər ABŞ, istər Rusiya, istərsə də Avropa tərəfindən – Bakı üçün qəbuledilməndir. Ona görə ki, Azərbaycan üçün bu, Naxçıvanla zəmanətli və maneəsiz əlaqə deməkdir. Vaşinqton üçün bu layihə Rusiyanın mövqeyinin zəifləməsi, onun son vaxtlar həm Bakı, həm də İrəvanla münasibətlərinin pisləşməsi fonunda regionda nadir hallarda yaranan hakimiyyət boşluğundan istifadə etmək fürsətidir.

Mövzuya son nöqtə kimi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Lefkoşaya səfəri zamanı jurnalistlərlə söhbətində dediyi sözlərini veririk: "Zəngəzur dəhlizi ölkələri bir-birinə daha da yaxınlaşdıracaq və beynəlxalq ticarət üçün yeni təkan olacaq. Əsas ümidimiz Zəngəzur dəhlizini nifaq mənbəyinə deyil, harmoniya rəmzinə çevirməkdir. Naxçıvanla Azərbaycanın qərb bölgələri arasında dəhlizin açılması regionun tərəqqisi naminə əməkdaşlığın qələbəsidir. Ürəkdən inanıram ki, region ölkələri bu məsələni razılaşma yolu ilə həll edəcəklər. Azərbaycan Prezidenti İlham Əliyev Zəngəzura böyük əhəmiyyət verir və çalışır ki, bu marşrut təkcə Azərbaycana deyil, yaxın gələcəkdə bütün regiona xeyir gətirsin. İnanıram ki, biz birlikdə bu problemi həll edəcəyik".

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi

**Qafar ÇAXMAQLI,**
**Türkiyənin Ərciyəs Universitetinin professoru, Azərbaycan–Ermənistan Araşdırmaları Mərkəzinin rəhbəri**



– Zəngəzur dəhlizinin açılmasına maraq göstərən ölkələrin başında Türkiyənin gəlməsi təbiidir. Çünki bu dəhliz vasitəsilə Türkiyədən Naxçıvana, Azərbaycana, buradan isə türk dünyasına uzanacaq kommunikasiya xəttinin, enerji dəhlizinin işə düşməsi Ankaranın maraq dairəsindədir. Bununla bağlı Türkiyə rəhbərliyi ciddi addımlar atmaqdadır. Rəsmi Ankaranın bu layihənin tezliklə reallaşması üçün beynəlxalq maliyyə qurumlarından böyük həcmdə güzəştli kredit alması onun Zəngəzura böyük önəm verməsinin göstəricisidir. Bu nəqliyyat dəhlizi yükləri Türkiyə ərazisindən keçərək Avropaya çatdıracaq ən qısa marşrutdur. Aydın məsələdir ki, bu marşrutun işə düşməsi ilə Azərbaycanın bölgədə və dünyada nüfuzu daha da artacaq. Ölkəmiz Türkiyə ilə türk dünyası arasında bir körpüdür və bunu reallaşdırmaqdan ötrü Azərbaycan boynuna düşən işləri görməkdədir. Azərbaycanın qərb bölgələri ilə Naxçıvanı birləşdirəcək nəqliyyat xətlərində böyük işlər aparılır.

Bildiyimiz qədər, Ermənistan da dəzlizin öz ərazisindən keçən hissəsinin inşası üçün lazım olan vəsaiti beynəlxalq maliyyə qurumlarından almaq üçün müraciətlər edib. Zəngəzur dəhlizi artıq reallıqdır və bundan qaçmaq mümkün deyil. Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətlərinin normallaşması, bölgədə sülhün bərqərar olması üçün Zəngəzur dəhlizi böyük əhəmiyyətə malikdir. Dəhlizin açılmasında Tehranın narahatlığı Ermənistanla sərhədinin təhlükəsizliyi ilə bağlıdır, amma buna heç bir əsas yoxdur. Ən azı, ona görə ki, müasir kommunikasiya xətlərinin çəkilməsində körpülər, alt və üst keçidlər nəzərdə tutulur. İran uzun illərdir ki, belə yersiz bəhanələrlə cığallıq edir, özünün "qırmızı xətti"ni ortaya atır. Tehranın iddiasının əksinə olaraq, dəhlizin açılması ilə Ermənistanın hər hansı ərazisinin dəyişməsi müzakirə mövzusu deyil. İran, sadəcə olaraq, Türk dünyasının güclənməsinə qısqanc yanaşır.

## Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

– Hesab edirəm ki, Türkiyə bu layihəni nəzərdə tutulan vaxta – 2027-ci ilədək gerçəkləşdirəcək. Amma bu zaman diqqəti həm də ona yönəltmək istərdim ki, Qarsdan Naxçıvana qədər dəmir yolu xətti ianə hesabına deyil, güzəştli kredit vasitəsilə inşa ediləcək. Nə qədər əlverişli şərtlərlə alınsa da, bütün hallarda həmin kreditin qaytarılması məsələsi də var. Bunun üçün isə həmin dəmir yolu xətti intensiv şəkildə fəaliyyət göstərməlidir. Yalnız Naxçıvana daşınacaq yüklərin gətirəcəyi gəlirlə böyük məbləğdə olan kreditin qaytarılması çətindir. Hətta Türkiyədən Azərbaycana qədər yük daşımaları həyata keçirilsə belə, yenə əldə ediləcək qazancın həcmi az olar. Zəngəzur marşrutu Orta Dəhlizin bir qoluna çevriləcəyi təqdirdə yüksək kreditlərin geri qaytarılması asanlaşacaq. Yəni Mərkəzi Asiyadan, Çindən yüklərin böyük bir hissəsi məhz Zəngəzur dəhlizi vasitəsilə Avropaya daşınanda maliyyə öhdəliyi də aradan qalxacaq.

İndi əsas məsələ Zəngəzur dəhlizinin keçdiyi bütün ərazilərdə onun bərpasının və inşasının tezləşdirilməsidir. Bizim qənaətimizə görə bu dəhliz iki hissədən ibarət olmalıdır. Bir hissəsi Ermənistan ərazisindən Naxçıvana, digəri isə İran ərazisindən keçərək Araz dəhlizi vasitəsilə Azərbaycana uzanmalıdır. Məhz bu iki marşrut Zəngəzur dəhlizinin davamlı fəaliyyətini təmin edə bilər. Ermənistan buna nə qədər etiraz etsə, İran müxtəlif bəhanələr gətirsə də, hər iki hissənin inşası qaçılmaz prosesdir. Çünki İrəvan və Tehran bu daşımaların həyata keçirilməsində maraqlıdırlar.

Azərbaycan Meğriyə qədər həm avtomobil, həm də dəmir yolu çəkilişini bu ilin sonuna, maksimum gələn ilin ortalarına kimi başa çatdıracaq. Marşrutun Naxçıvandan keçəcək hissəsində də zəruri rekonstruksiya işləri aparılmalıdır ki, sürət qatarları rahat hərəkət edə bilsinlər. Sonda onu da qeyd edim ki, dünyanın nüfuzlu maliyyə institutlarının dəmir yolunun inşası üçün Türkiyəyə böyük məbləğdə vəsaiti ayırmaları bu layihədə "böyük güclər"in də maraqlı olduqlarını göstərir.

# ANCA-nın konsert isterikası

## *Cəfəng ittihamları bitməyən təşkilat yenə həddini aşdı*




**Məlumdur ki, ABŞ-da ictimai fəaliyyətlə və hökumətlə əlaqələrlə məşğul olan ən böyük və ən nüfuzlu erməni–amerikan təşkilatı Amerika Erməni Milli Komitəsi – ANCA-dır. Komitə Birləşmiş Ştatlarda erməni xalqının əsas nümayəndəsidir, onun milli maraqlarının keşiyində dayanır, onu yerli, regional və federal səviyyədə təmsil edir. Ancaq qurum bu istiqamətdə fəaliyyət göstərməkdən daha çox Azərbaycan və Türkiyəyə qarşı mübarizə aparmağı əsas qayəsinə çevirib. Komitə bu məqsədi həyata keçirmək üçün ələ düşən bütün fürsətlərdən yararlanmağı qarşısına vəzifə qoyub. Bu mənada dünya şöhrətli amerikalı müğənni Castin Timberleykin "Forget Tomorrow" adlı dünya turnesi çərçivəsində iyulun 27-də Bakı Olimpiya Stadionundakı konserti ANCA üçün göydəndüşmə fürsət olub.**

Komitə iyulun 28-də açıqlama yayaraq konserti tənqid edib. Açıqlamada C.Timberleykin Azərbaycanın paytaxtında çıxışının ABŞ-dakı erməni diasporu arasında böyük rezonans doğurduğunu bildirib. Daha sonra ölkəmizin ünvanına ağır sözlər işlədilib. O sözlər ki, onlar, əslində, ermənilərin ünvanına asanlıqla işlədilməlidir. Məsələn, ANCA Timberleykin çıxışını "sadəcə konsert deyil, Azərbaycanın insanlığa qarşı cinayətlərinə haqq qazandırmaq üçün davam edən kampaniyası" (?) adlandırıb. Komitə vurğulayıb ki, irimiqyaslı mədəni tədbirlərin, o cümlədən dünya ulduzlarının iştirakı ilə keçirilməsi "rəsmi Bakının dünya miqyasında öz imicini yumaq" (?) cəhdidir. Bu çərçivədə yenə köhnə bayatılar zümzümə olunub. Xüsusilə, 2023-cü ilin sentyabrındakı birgünlük antiterror əməliyyatı xatırladılıb. Yenə də iddia olunub ki, həmin hadisələr vaxtı, guya, 100 mindən çox (?) etnik erməni "Artsax"ı tərk etməyə məcbur olub. Bildirilib ki, "heç bir işıq çaxması (konsert zamanı istifadə olunan işıqlar nəzərdə tutulur–S.H.) müharibə cinayətlərini gizlədə bilməz".

*

Bu bəyanat bir daha göstərir ki, Ermənistan rəhbərliyinin ən azı üzdə Azərbaycana münasibəti dəyişsə də, diasporda cəmləşmiş ermənilər yenə də öz xislətlərinə sadiq qalmağa davam edir, qisas hissi ilə alışıb yanırlar. Girişdə qeyd etdiyimiz kimi, bu təşkilat Azərbaycanı gözdən salmaq və beynəlxalq aləmdə nüfuzuna xələl gətirmək üçün hər fürsətdən yararlanmağa hazırdır. C.Timberleykin Bakıda verdiyi konsertin ABŞ-da yaşayan ermənilər arasında rezonans doğurduğunu iddia edən komitə, əslində, mədəni tədbirləri siyasi hücum vasitəsinə çevirməyə çalışır. Təşkilat konserti "Azərbaycanın insanlığa qarşı cinayətlərinə haqq qazandırmaq üçün kampaniya" kimi təqdim etməklə absurd və məntiqsiz yanaşma sərgiləyib. Bu cür yanaşma siyasi isterikadan başqa bir şey deyil. Əgər bir konsert "cinayətə haqq qazandırmaq" sayılırsa, o zaman bu məntiqə görə dünyadakı bütün konsertlər, musiqi festivalları və mədəni tədbirlər hansısa ölkənin yaşadığı münaqişələr üzərindən qiymətləndirilməlidir. Bu isə mədəniyyətin birləşdirici, sülh və harmoniya içində yaşamaq çağırışına, bir sözlə mahiyyətinə tamam ziddir. ANCA-nın bu mövqeyi təkcə Azərbaycana deyil, bütün mədəni dünyaya qarşı yönəlmiş dar düşüncəli və manipulyativ yanaşmadır. Bu yanaşma, sadəcə, ANCA-nın Azərbaycana qarşı nifrət kampaniyasını emosional manipulyasiya ilə ört-basdır etmək cəhdidir. Belə yanaşmalar nə sağlam əsaslara söykənir, nə də çağdaş dünyanın tələblərinə cavab verir.

Digər tərəfdən, real mənzərə Azərbaycanın bu cür irimiqyaslı tədbirlərlə öz multikultural dəyərlərini, qonaqpərvərliyini və mədəni potensialını nümayiş etdirməsindən ibarətdir. ANCA-nın reaksiyası, əslində, həm də mədəniyyətin birləşdirici gücünə qarşı dözümsüzlüyün nümayişidir. Görünür, dünya ulduzlarının Bakıya gəlməsi, minlərlə insanın musiqidən zövq alması, Azərbaycan mədəniyyətinin qlobal platformada tanıdılması bəzi dairələri ciddi şəkildə narahat edir. Çünki onlar illərdir çalışırlar ki, Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın adı yalnız münaqişə bölgəsi, zorakılıq və təhdidlər kontekstində hallandırılsın. Halbuki bu gün Azərbaycan özünün inkişaf etmiş infrastrukturu, təhlükəsizliyi və mədəniyyət müstəvisində də dünyaya açılması ilə planetin nəzər-diqqətini özünə cəlb edir. ANCA-nın iddia etdiyi kimi, bu, "öz imicini yumaq" deyil, əksinə, real və obyektiv uğurların nəticəsidir.

Açıqlamanın diqqətçəkən məqamlarından biri də Azərbaycanın 2023-cü ilin sentyabrında məcburiyyət qarşısında qalaraq keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin yenidən təhrif olunmasıdır. ANCA bu hadisəni konsert kontekstində xatırladaraq, bir daha "100 min erməninin öz evini tərk etməsi" mifinə istinad edib. Halbuki, BMT və digər beynəlxalq qurumların sənədlərində bu rəqəm nə təsdiqlənib, nə də ermənilərin Qarabağı könüllü tərk etməsi "etnik təmizləmə" kimi qiymətləndirilib. Əksinə, Azərbaycan həmin əməliyyatla separatçı rejimin, öz ərazisindəki "boz zona"nın mövcudluğuna son qoyub, ölkənin suverenliyini bərpa edib və erməni əhalisinin reinteqrasiyası üçün konkret mexanizmlər irəli sürüb. Bu faktları bilərəkdən nəzərdən yayındıran ANCA, konsert zamanı istifadə olunan işıq effektlərini belə "müharibə cinayətlərini gizlətmək" kimi absurd iddialarla manipulyasiya edir.

Burada yaranan əsas suallardan biri də okeanın o tayında fəaliyyət göstərən təşkilatın bir mədəni tədbiri siyasi məqsədlərlə bu dərəcədə aşağılamağa çalışmasının məqsədinin nədən ibarət olması ilə bağlıdır. Cavab bundan ibarətdir ki, ANCA regionda yaranmış reallıqları qəbul edə bilmir. Onlar müharibə və ziddiyyət üzərindən mövcudluğunu əsaslandırmağa çalışır. Azərbaycanın gündən-günə inkişaf etməsi, dünya ulduzlarının Bakını seçmələri, regionda yeni əməkdaşlıq modellərinin formalaşması erməni diaspor təşkilatlarında ciddi narahatlıq doğurur. Bu səbəbdən də onlar ölkəmizin hər uğurunu gözdən salmaq, hər bir müsbət hadisəyə qara don geyindirmək üçün səfərbər olunublar.

Əslində, ANCA-nın bu reaksiyası təşkilatın iç üzünü və taktiki çarəsizliyini bir daha nümayiş etdirir. Əgər bir konsert tədbiri bu qədər reaksiya doğurursa, bu, o deməkdir ki, Azərbaycanın təqdim etdiyi mədəni və ictimai dəyərlər onların təbliğ etdiyi nifrət ritorikasını kölgədə qoyur. Azərbaycan mədəniyyətinin dünyaya açılması, ölkənin etibarlı tərəfdaş kimi qəbul olunması təkcə siyasi deyil, həm də humanitar və mənəvi zəfərdir. ANCA kimi qurumlar isə bu zəfəri kölgələmək üçün uydurma arqumentlərlə gündəmi dəyişməyə cəhd göstərirlər. Lakin bu cəhdlər nə reallığı dəyişə, nə də Azərbaycanın nüfuzunun yüksəlməsini dayandıra bilər.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



**İlyas HÜSEYNOV,**
**politoloq**

– Amerika Erməni Milli Komitəsi hər zaman Azərbaycan və Türkiyə əleyhinə mövqedən çıxış edib. Bu istiqamətdə müxtəlif mexanizmlər işə salıb. Korrupsiya vasitəsilə ABŞ-da qeyri-hökumət təşkilatlarının, medianın, nüfuzlu siyasətçilərin ölkəmiz əleyhinə çıxış etmələrini dəstəkləyib və bu istiqamətdə maliyyə vəsaiti ayırıb. Eyni zamanda, Azərbaycan və Ermənistan arasında sülhün əleyhinə çıxış edən ən qatı və kəskin mövqedə olan təşkilatlardan biridir. Nəzərə almaq lazımdır ki, ANCA-nın böyük maliyyə dəstəyi, eyni zamanda, bütün dünyaya səpələnmiş qolları, şəbəkələri mövcuddur.

ABŞ-ın önəmli pop-ulduzlarından olan Castin Timberleykin Bakıda konsert verməsi onları ciddi narahat edib. Bunu öz istədikləri formada qələmə verməyə çalışırlar. Əsassız şəkildə iddia edirlər ki, guya, Azərbaycan bu konserti təşkil etməklə bir tərəfdən ABŞ-la yaxınlaşmaq siyasətini güdür. Digər tərəfdən isə ölkəmizin suveren hüquqlarının həyata keçirilməsi və ərazi bütövlüyünün təmin olunması məqsədli şəkildə təhrif edilir. Lakin nəzərə almaq lazımdır ki, onların iddia etdikləri kimi 100 min erməninin Qarabağdan köçüb getməsi könüllü baş verib. Burada hansısa etnik təmizləmədən söhbət gedə bilməz. Bundan əlavə, həmin rəqəmin 100 min olması da böyük şübhə altındadır.

Bundan əlavə, Azərbaycana qarşı çirkin düşüncələr, fikirlər və məkrli siyasətlərin təbliği ənənəvi xarakter alıb. Onlar çalışırlar ki, ölkəmizin hər bir uğurunu, hər bir nailiyyətini kölgə altına alsınlar. Azərbaycanın Qərb strukturları ilə yaxınlaşmasını da böyük faciə kimi qiymətləndirirlər. Çünki bunun arxasında özlərinin marginal maliyyə maraqları dayanır. Onlar uzun illər ərzində qondarma "erməni soyqırımı"nın təbliğatı və bu "ideya"nın həyata həyata keçirilməsinə milyonlarla dollar xərcləyiblər. Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının üfüqdə görünməsini, Zəngəzur dəhlizinin, Türkiyə–Ermənistan sərhədinin açılmasının mümkünlüyünü onlar böyük faciə kimi qiymətləndirirlər. Çünki onlar onillərlə bu bölgədə münaqişələrdən pul qazanaraq özləri üçün ABŞ-da şərait yaradıblar. İndi isə onlar ifşa olunur, fəaliyyətləri heç kimə lazım olmayacaq. Məhz buna görə həm ABŞ hakimiyyətini tənqid edir, həm Ermənistana təzyiq göstərməyə çalışır, həm də ölkəmizə qarşı hibrid formada hücumlar təşkil olunur.

# Vladimir Solovyov və Corc Oruellin donuzu

## *Yaxud "ayı xidməti"nə ehtiyac duyanlar haqqında nekroloq əvəzi*

**XX əsr Britaniya və dünya ədəbiyyatının görkəmli nümayəndəsi Corc Oruellin "Heyvanıstan" satirik-alleqorik romanında ədalətli cəmiyyət arzusunda olan bir qrup heyvan üsyana qalxır, lakin bərabərliyə və azadlığa qovuşub xoşbəxtlik tapa bilmir. Çünki ferma Napoleon adlı donuzun ixtiyarına keçir.**

Donuz Napoleon əvvəl digər heyvanlarla birgə mübarizə aparıb. Yəni o da hamı kimidir. Sonradan isə bu donuz totalitarizmin və manipulyasiyanın rəmzinə çevrilir, "bütün heyvanlar bərabərdir, amma bəziləri daha bərabərdir" prinsipi ilə öz avtoritar hakimiyyətini möhkəmləndirir. Napoleon reallığın ciddi təhrifinə yol verir, hər uğursuzluğa daxili və xarici düşmən obrazı yaradaraq izah tapır.

Əslində, Oruellin "1984" romanındakı Böyük qardaş da mahiyyətcə Napoleon kimidir. Əlbəttə, teleekran və fikir cinayətkarlığının tərənnümünə çevrilmiş Böyük qardaş 1984 rəqəminin özü kimi mistik-simvolik mahiyyətlidir. Ancaq dahi Şekspirin "Otello"sundakı Yaqo real obrazdır. O, intellektual manipulyasiya, nifaq yaratmaq yönümlü fəaliyyəti ilə müəyyən



mənada həm Böyük qardaşın, həm də donuz Napoleonun sələfi statusunu daşıyır.

Hazırkı Rusiyanın efir məkanına diqqət yetirəndə adlarını çəkdiyimiz mənfi personajların hamısının bir "parlaq" xələfini görürük. Əslində, həmin mənfi personajları yada salmağımızın səbəbi də onun özüdür. Söhbət rusiyalı telejurnalist, Rusiyanın dövlət kanalında hər cür hoqqabazlıq edən Vladimir Solovyovdan gedir.

*

V.Solovyov cəmiyyətdə və beynəlxalq aləmdə baş verən hadisələrə sırf Kremlin narrativi çərçivəsində yanaşır. Əlbəttə, jurnalistin öz dövlətinin maraq və mənafelərini müdafiə etməsində qəbahət yoxdur. Sadəcə, peşəkarlıq mütləqdir. Hazırda Solovyov özünün "donuz napoleonluğu", "böyük qardaşlığı" və "yaqoluğu" ilə jurnalistika prinsiplərinə "tüpürür". Halbuki, "yuxarının" tapşırığını daha sivil formada yerinə yetirmək mümkündür. Solovyovda sivilliyin heç ilk "s" hərfi belə yoxdur. Ona görə onun üfunətli "tüpürcəyi", istər-istəməz, Kremlin də yaxasına sıçrayır. Nə bilmək olar, bəlkə, elə norma budur.

...Solovyovun "ayı xidməti"ndən yararlananlar fərqində deyillər ki, bu ikrah doğuran personajı insanların evlərinə dürtməklə, bütövlükdə, rus cəmiyyəti adına böyük utanca imza atırlar. Axı nəticədə, Rusiya ictimai fikri məhz solovyovların dili ilə formalaşır. O dil ki, hiddət, qəzəb, nifrət və kin aşılayır və məsələ bununla da bitmir. Jurnalistika adına gerçək parodiyaya çevrilmiş bu məxluqa görə, Rusiyanın özünə də, yumşaq desək, pis münasibət formalaşır. Sual yaranır: Dostoyevski, Tolstoy və digər böyük, humanist dəyərlərin daşıyıcıları sayılan dahilərin vətəni Solovyov kimi düşüncə pozuqluğunun ümidinəmi qalıb? Yaxşı olar ki, ölkənin mütərəqqi insanları bu məsələ ətrafında düşünsünlər. Amma düşünməklə kifayətlənməsinlər. Çünki əsl məqsədi Rusiyanı "yerin dibinə soxmaq olan" Solovyov dayanmaq bilmir...

Bəli, qarşı tərəfin fikrini susdurmaqla, fərqli düşünənləri "xarici agent", "satqın" və ya "Qərbin nökəri" adlandırmaqla, ictimai fikri istədiyi istiqamətə yönəltməyə çalışan Solovyov sülh və sabitlik adı altında avtoritar yanaşmanı legitimləşdirməyə çalışır, mütləq doğrunun "yeganə sahibi" kimi davranır. Onun bu "dəst-xəttinin" anti-Azərbaycan təmayülündən dəfələrlə yazmışıq və yazmaqdan bezməyəcəyik. Çünki bu manqurt ölkəmizi hədəfə almaqdan yorulmur.

*

Əlqərəz, həmyerlimiz Mixail Qusman ötən həftə Rusiyanın baş naziri Mixail Mişustinin sərəncamı ilə TASS-ın baş direktorunun birinci müavini vəzifəsindən azad edildi. Aydındır ki, səbəb onun iyulun 19–21-də keçirilmiş III Şuşa Qlobal Media Forumunda iştirakı ilə bağlıdır. O forumdakı ki, Prezident İlham Əliyev həmin toplantının iştirakçıları ilə Xankəndidə görüş keçirdi. Dövlətimizin başçısına sual ünvanlayanlardan biri də cənab Qusman oldu.

Qusmanın sualı özündə geniş və hansısa siyasi niyyət daşımışdı. Qocaman jurnalist Prezident İlham Əliyevdən ölkəmizin çoxvektorlu xarici siyasət kursunu dəyərləndirməsini xahiş etmişdi. Şübhəsiz, Qusmanın yanaşmasında incə subliminalizm nəzərə çarpmışdı. Məsələn, o, sual səsləndirərkən Azərbaycanla Rusiya arasındakı gərginliyə toxunmuşdu: "Bütün beynəlxalq azimutlarda, mən Rusiyadan başlayacağam, son zamanlar nə Rusiyada, nə də Azərbaycanda geniş ictimaiyyətin müsbət reaksiyasına səbəb olma ehtimalı az olan, mənim dediyim kimi, son zamanların "çalxalanmalarına" baxmayaraq, 2022-ci il fevralın 22-də Moskvada imzaladığınız müqavilənin əsasları heç bir şübhə doğurmur. Bu, aydındır".

Əslində, cənab Qusman bu xatırlatması ilə bir çox mətləbləri dəqiqləşdirmişdi. O, Prezident İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin tərəfindən imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"dən söz açmış və sənədin fundamental yükünü vurğulayaraq, Bakı – Moskva münasibətlərindəki hazırkı gərginliyin həmin fundamentallığa zərər vurmayacağına əminlik ifadə etmişdi. Təcrübəli jurnalist yanaşması ilə həm də Rusiya üçün vacib olan məqama aydınlıq gətirmişdi.

Diqqət yetirdinizsə, dövlətimizin başçısı cavabında sözügedən bəyannamənin üzərindən keçdi. Yəni, bilavasitə sənəddən söz açmadı. Halbuki, o, Rusiyadakı hazırkı anti-Azərbaycan ritorikasının tərəfdaşlığın ruhuna zidd olduğunu vurğulaya bilərdi. Prezident İlham Əliyev cavabı ilə bəyannamənin elan etdiyi bərabərtərəflilik, qarşılıqlılıq prinsiplərinin ölkəmizin dünyanın bütün qütbləri ilə münasibətlər trayektoriyasında mühüm əhəmiyyət daşıdığını vurğulamışdı. Yəni ki, Prezident Əliyev diplomatik tərzdə Rusiya ilə əlaqələrin gələcək strukturunu da vurğulamışdı. Yəni bəyannamənin açıqlandığı prinsiplər reallıqda da əksini tapmalıdır ki, əvvəlki axara qayıdılsın.

Belə bir durumda Qusman Rusiya üçün Azərbaycanla bağlı, bir növ, təminat alan ampluasındadır. Deməli, Kremlin bəzi başıpozuq təbliğat ünsürlərinin və ermənipərəstlərin iddialarının əksinə olaraq, Azərbaycan heç bir beynəlxalq mövqe dəyişdirmir, xarici aləmlə münasibətlərini özünün balanslı rasional kursu əsasında qurur. Görəsən, indiki durumda Rusiyada Azərbaycan Prezidentindən bu cavabı almağa müvəffəq ikinci jurnalist varmı? Əslində, cənab Qusmana Rusiyadan təşəkkür düşür. Amma...

*

Görünür, Rusiyaya bu cavab, daha doğrusu, Azərbaycanın mövqeyi sərf eləmir. Axı ölkənin siyasi isteblişmenti başqa dövlətləri aşağı pillələrdə təsəvvürə gətirir. Tam əminliklə demək olar ki, Qusman məhz bu baxışın qurbanı oldu. Halbuki, jurnalist hər zaman Bakı–Moskva əlaqələri naminə çalışıb, müstəsna xidmətlər göstərib. Belə bir yüksək səviyyəli şəxsi, əsl ziyalını, jurnalist peşəsinin həqiqi daşıyıcısını Solovyov kimi içindəki naqis yırtıcılığı efirə püskürməkdən həzz alan "timsahın" "ağzına" vermək haqsızlıq dolu rəzillikdir. Heç şübhəsiz, bütövlükdə, Rusiya ictimai rəyi bu rəzil rüsvayçılığın altını çəkəcək. Çox təəssüf.

Sən demə, Qusman Prezident İlham Əliyevdən Bakıda saxlanılan və adlarını jurnalist qoyan agentlər barədə soruşmalı imiş. Axı qocaman jurnalistin sualı və ona aldığı cavab Solovyov kimi əbləhin, loru dildə desək, başı üçün deyil. Onu da deyək ki, dövlətimizin başçısı, mahiyyətcə, Rusiya ilə münasibətlərdə heç nəyin itirilmədiyinin mesajını vermişdi. Bu mesaj azdırmı?

Prinsipial məqamı isə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev alman nəşrinə bir neçə gün əvvəlki müsahibəsində açıq şəkildə bildirdi. Onun sözlərindən gəlinən qənaət budur ki, ölkəmizin Şimal qonşusundan gözləntisi var – məlum təyyarə olayına obyektiv münasibət, AZAL-a məxsus hava gəmisinə atəş açmaq əmri verənlərin cəzalandırılması, Moskvanın böyük insan tələfatına səbəb olmuş hadisəyə görə üzr istəməsi və təzminat ödəməsi. Əslində, Prezident İlham Əliyev də III Şuşa Qlobal Forumu zamanı Qusmanın deyil, digər iştirakçıların suallarını cavablandırarkən, eyni mövqeni bölüşmüşdü. Mövzuya dair ünvanlayacağımız böyük sual isə budur: Rusiya niyə ölkəmizin haqlı tələbini yerinə yetirmir?

Suala cavab yoxdur, əvəzində Solovyov dövlət televiziyasının efirindən təkcə cənab Qusmanı yox, habelə Azərbaycanın təşkil etdiyi mötəbər tədbirin iştirakçısı olmuş digər rusiyalı nümayəndələri hədəfə alır, onları, az qala, xalq düşməni adlandırır. Görəsən, nə vaxtdan Azərbaycandan səfər dəvətini qəbul etmək Rusiyada düşmənçilik sayılır? Bunu Solovyov uydurubsa, kimsə çıxıb bu nataraz beyin sahibinin hərəkətinə izah versin?

İndi nə düşünək? Düşünək ki, Rusiya rəsmilərinin Azərbaycanla münasibətlərin önəminə dair verdiyi pozitiv notlu açıqlamalar yalnız quru diplomatik səciyyə daşıyır və səmimiyyətdən uzaqdır? Axı Rusiya (dövlət) teleməkanını özünün iyrənc söz ifrazı üçün plasdarma çevirmiş Solovyov pis ağzını açmaqdan çəkinmir. Bəlkə, Kremldə kimlərsə ondan qorxur? Bəlkə, vazkeçilməz istedad sahibidir? Nədir də bu zəncantropun önəmi ki, ona efiri murdarlamaq imkanı yaradılır?!

*

Sonda onu da deyək ki, əvvəldə haqqında söz açdığımız bədii əsərlərin hər birinin mənfi personajları üçün faciə mahiyyəti daşıyan sonluq var. Məsələn, "Heyvanıstan"dakı donuz Napoleon yekunda artıq insanlarla bərabər masa arxasında oturur, bu isə idealist heyvanlar üçün xəyanətdir.

Bir zamanlar jurnalistikanın prinsiplərini müdafiə etdiyini deyən Solovyov da hazırda tamamilə iyrənc siyasi təbliğatın ruporuna çevrilməklə eyni ampluadadır. Ancaq Solovyovun Oruellin "donuzun"dan fərqi var. İkinci insanlarla bir masada oturmaq üçün ideyalarını satmışdısa, Solovyov hərəkət və davranışları ilə insanlığını satıb heyvanlaşır. Güman edirik ki, əlavə şərhə ehtiyac yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Ana dilimiz babaların əmanəti, milli varlığımızın özülüdür

**Azərbaycan dilinin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda, ana dilinin zənginliyinin sübutudur. Dil hər bir xalqın maddi və qeyri-maddi irsinin qorunması, inkişafı və gələcək nəsillərə ötürülməsi istiqamətində ən güclü vasitələrdən biridir. Azərbaycan dili bizim üçün müqəddəs dildir, ömrümüzü mənalandıran, xəyallarımızı qanadlandıran, milli mənsubiyyətimizi və kimliyimizi təsdiq edən ən vacib amillərdəndir.**

Xalqımızın digər sərvətləri kimi, əlifbası və dili də zaman-zaman yadelli işğalçıların təzyiqinə məruz qalıb. Lakin dilimizin zənginliyi və özünüqoruma gücü onun məhv olmasına imkan verməyib. Dilimizin dövlət dili kimi qəbul edilməsi, qorunması və inkişafı isə məhz ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycan dilinin mövcud təhlükələrdən qorunması və gələcək nəsillər üçün mühafizə edilməsi istiqamətində Ulu öndərin misilsiz xidmətləri olub."Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi və inkişaf etməsi bizim nailiyyətlərimizdən biridir. Bu təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir" – deyən dahi rəhbər ana dilimizin qorunması və inkişafı istiqamətində mühüm qərarlar qəbul edib.

1977-ci ildə SSRİ-nin yeni konstitusiyası təsdiq edilən zaman oraya dövlət dili haqqında maddənin salınmaması ilə heç cür barışmayan Heydər Əliyevin şəxsi təşəbbüsü, qətiyyəti, sarsılmaz iradəsi və ciddi səyləri nəticəsində 1978-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyasına Azərbaycan dilinin dövlət dili kimi fəaliyyəti haqqında ayrıca maddə daxil edildi.



1993-cü ildə yenidən siyasi hakimiyyətə gələn Ulu öndər digər sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması, adət-ənənələrimizin, milliliyimizin inkişafı məsələsini diqqətdə saxlanılmasını ön plana çəkdi."Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, dilimiz yaşayıb və zənginləşibdir. Azərbaycan ədəbi dilinin saflığına daim qayğı göstərilməlidir. Çünki dil xalqın sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir"- söyləyən Ümummilli lider yürütdüyü dil siyasətində həmişə çalışırdı ki, gənc nəsildə bu cür nəcib hisslərin tərbiyə edilməsi ön planda olsun.

1995-ci ildə məhz Prezident Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və ümumxalq səsverməsi ilə qəbul edilən müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapdı. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da gücləndirildi.

Ulu öndər Heydər Əliyev Azərbaycan əlifbası kimi, dilinin də hərtərəfli inkişafına, onun rəsmi dövlət dili statusu almasına, beynəlxalq münasibətlər sistemində dünya diplomatiyasına yol açmasına nail olmaqla bəyan etdi ki, ana dilinə sevgi və məsuliyyətlə yanaşmaq həm övladlıq, həm də vətəndaşlıq borcudur.

Ulu öndərin dövlət dilinin yeni inkişaf dönəmində yaranmış vəziyyətini nəzərə alaraq 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", həmin il avqustun 9-da "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" imzaladığı fərmanlar ana dilimizin qorunması və inkişafı baxımından göstərdiyi misilsiz xidmətlərdəndir. Latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə bütövlükdə təmin edilməsi və yeni əlifbadan istifadə müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə oldu.

2001-ci il 9 avqust tarixli fərmana əsasən hər il avqustun 1-i ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir. Ölkəmizin tarixində ilk dəfə ana dili və onun əlifbasının qeyd olunması üçün ayrıca günün təsis olunması müstəqil dövlətimizin ana dilinə nə qədər önəm verdiyini əks etdirən tarixi amildir.

Ümummilli lider Heydər Əliyevin sonrakı addımları da dilimizin inkişafı və zənginləşdirilməsinə xidmət etdi. Bunun üçün dilçi alimlərin fəaliyyətini yaxından izləyən və onların qayğısına qalan Ulu öndər ana dilimizdə kitabların nəşrinə xüsusi diqqət ayırdı. Azərbaycan dili ilə bağlı vacib addımlardan biri də müstəqil Azərbaycan dövlətinin ana dilinə hərtərəfli qayğısının təcəssümü olaraq Prezident Heydər Əliyevin 2002-ci il sentyabrın 30-da imzaladığı "Azərbaycan Respublikasının dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunudur. Bu qanunda dövlət dilinin işlənməsi, inkişafı, saflığının qorunması, ədəbi dilin normalarına əməl edilməsi, ölkəmizdə dilçilik elminin nəzəri və tətbiqi sahələrinin inkişafına lazımi şəraitin yaradılması kimi məsələlər nəzərdə tutulub.

Ümummilli liderin ideyalarını bu gün layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. O, Ümummilli liderimizin həyata keçirdiyi ana dili siyasətini bu gün də uğurla davam etdirir.

Prezident İlham Əliyev tərəfindən "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamları ana dilinin həyatımızın bütün sahələrində tətbiqini gerçəkləşdirdi. Dövlət başçısının sərəncamları əsasında 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi.

"Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" sərəncam isə Azərbaycan Milli Ensiklopediyasının çoxcildli nəşrinin başlanılmasını təmin etdi. Prezident İlham Əliyevin dilimizin inkişafı və qorunması istiqamətindəki növbəti fəaliyyəti "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında", "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında", "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamları, "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Nazirlər Kabinetinin qərarını ana dilinə dövlət qayğısının artırılması kimi dəyərləndirmək olar.

Dövlət başçısının "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı ölkədə dövlət dilinin daim diqqət mərkəzində saxlanıldığını bir daha təsdiq edir. Dil quruculuğu ilə bağlı olan bu sənəd Azərbaycan dilinin milli-mənəvi, siyasi-hüquqi statusunun möhkəmlənməsi istiqamətində atılmış mühüm addımlardan biridir.

Ölkə Prezidenti İlham Əliyev milli xüsusiyyətlərimizin saxlanmasında ana dilimizin başlıca amillərdən olduğunu dəfələrlə diqqətə çəkərək demişdir: "Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz - Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq".

Ana dilimiz bizim keçmişimiz, bu günümüz və sabahımızdır. Keçmiş əcdadlarımızın ən dəyərli mirası, gələcək nəsillərin əmanətidir. Bu gün hər birimizdən Azərbaycan dilinə münasibətdə, dilimizin saflığının, milli varlığının qorunmasında vətəndaşlıq mövqeyi tələb olunur. Hər birimiz bir vətəndaş, bir insan, bir azərbaycanlı kimi tarix durduqca bu mirasımızın qayğısına qalmalı və dilimizi mükəmməl formada gələcək nəsillərə çatdırmalıyıq.

***Gülxarə TARVERDİYEVA,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

# Prezident İlham Əliyevin siyasi kursunda milli ideya və suverenlik



I MƏQALƏ

## Liderin siyasi təcrübəsi

Azərbaycan Prezidenti İlham Əliyevin III Şuşa Qlobal Media Forumunda suallara cavabında siyasi təcrübənin əhəmiyyəti ilə bağlı ifadə etdiyi tezis tarixi əhəmiyyətlidir. Dövlət başçısı Prezident kimi malik olduğu təcrübəni tam haqlı olaraq "əldə etdiyim çoxillik əvəzsiz təcrübə" kimi xarakterizə edir. Dövlət başçısının bu məsələni birbaşa xarici siyasətin əsas prinsipləri kontekstində gündəmə gətirməsi Azərbaycanın siyasi liderlik ənənəsində yeni politoloji hadisədir. İlham Əliyevin Prezident kimi əldə etdiyi təcrübəni iki aspektdə siyasi-nəzəri təhlil etməyi zəruri hesab edirik.

Birincisi, müasir müstəqil Azərbaycan Respublikasında dövlət quruculuğu kursu bağlılığında İlham Əliyevin siyasi təcrübəsinin yeri və rolunun siyasi-nəzəri təhlili.

İkincisi, Prezident İlham Əliyevin siyasi təcrübəsinin gətirdiyi yeniliklərin konseptual tədqiqi.

Siyasi təcrübə məsələsinin bu cür qoyuluşu prizmasında ümumilikdə müasir mərhələdə müstəqil dövlət identikliyinin siyasi parametrlərinin konseptual anlamını da aktuallaşdırır. Mövzunu nəzəri olaraq qəlizləşdirmədən liderin siyasi təcrübəsini dövlət identikliyinin siyasi parametrlərindən biri kimi təhlil etməyə çalışaq.

## Anlayışın izahı

Elmi ədəbiyyatda "liderin siyasi təcrübəsi" anlayışı bilikləri, bacarıqları, qabiliyyətləri və fəaliyyətin önqaydalarını əhatə edən məfhum kimi tərif edilir. Bu keyfiyyətlər liderin siyasi fəaliyyəti prosesində öz funksiyalarını səmərəli yerinə yetirmək və qarşıya qoyulan məqsədlərə çatmaq üçün əldə edilir.

Deməli, liderin siyasi təcrübəsi sadəcə faktların və göstəricilərin toplanması deyildir, yaradıcı surətdə dəyərlər sisteminin formalaşmasıdır. Bu zaman siyasi proseslərin anlamı, situasiyanı təhlil etmək qabiliyyəti, qərarqəbuletmə bacarığı və siyasi proseslərin digər iştirakçıları ilə qarşılıqlı münasibətlərdə olmaq tərzi ön plana çıxır. Beləliklə, liderin siyasi təcrübəsi mürəkkəb nəzəri anlayışdır və siyasi fəaliyyətin çox aspektlərini özündə birləşdirir.

## İki aktual istiqamət

Buradan iki aktual istiqaməti müəyyən edə bilərik. Birincisi, "liderin siyasi təcrübəsi"nin anlayış kimi ümumi siyasi dərki, ikincisi, İlham Əliyevin bu istiqamətdə əldə etdiyi uğurların "siyasi anatomiyası"nın araşdırılması.

Bu iki aspekt Azərbaycan Prezidentinin siyasi təcrübəsinin müasir müstəqil dövlətin tam suverenliyinin təmin edilməsi prosesində əhəmiyyətini dərk etməyə imkan verir. Çünki bu iki aspektdə liderin bilik əldə etməsi, qabiliyyət və bacarıqlara yiyələnməsi, dəyərlər və önqaydaları yenilənməsi, idarəetmə qabiliyyətini inkişaf etdirməsi və dərin təhlil əsasında proqnostik qərarlar qəbul etməsi sintez halında özünü göstərməlidir. Bütün bunlar liderin məhz siyasi təcrübə əsasında öncə mövcud vəziyyətə adaptasiya olması, sonra isə onu yeniləşdirməsi imkanlarını müəyyən edir.

Beləliklə, liderin siyasi təcrübəsi mürəkkəb və çoxtərəfli anlayışdır ki, biliyin, qabiliyyətlərin, bacarıqların və önqaydaların müxtəlif aspektlərini ehtiva edir. Əlbəttə, təcrübə siyasi fəaliyyət prosesində formalaşır. Bununla deyə bilərik ki, təcrübə uğurlu siyasi liderliyin mühüm faktorudur.

Bu cür nəzəri izahlardan sonra birbaşa Prezident İlham Əliyevin siyasi liderlik təcrübəsinin suverenlik və milli ideya kontekstlərində dövlət quruculuğundakı yeri və rolu məsələsinin konseptual təhlilinə keçə bilərik. Öncə, milli ideya-liderin siyasi təcrübəsi dixotomiyasının ümumi fəlsəfi və politoloji məqamlarına qısa nəzər salaq.

## Liderin siyasi təcrübəsi və milli ideya

Bu mövzunu politoloqlar və sosioloqlar müxtəlif kontekstlərdə tədqiq edirlər. Lider-cəmiyyət münasibətləri kontekstində aparılan tədqiqatlarda liderliyin mədəniyyət mühiti ilə bağlılığı, liderin şəxsi keyfiyyətləri və şəxsi fəaliyyət özəlliyi tarixi təcrübə aspektində təhlil edilir. Bir başqa istiqamətli araşdırmalarda liderliyi bütövlükdə milli dövlət quruculuğu kontekstində tədqiq edirlər. Məsələn, struktur-funksional yanaşma çərçivəsində "siyasi liderin şəxsiyyətinin transformasiyasının özünəməxsusluğu" araşdırılır.

Milli dövlətin mövcudluğu bu prosesi daha dinamik və əhatəli etmişdir. Belə ki, liderlik faktiki olaraq "ictimai həyatın elə tərkib hissəsinə çevrilmişdir ki, liderlə sosiumun bütün kəsimlərinin qarşılıqlı münasibətləri kəsintisiz hala gəlmişdir. Bununla da "liderin şəxsiyyətinin transformasiya yolları"ndan bəhs edilir. Bu cür əhatəlilik sülalə monarx dövlətlərində mövcud deyildir.

Məsələnin bu istiqamətlərdə tədqiqi göstərir ki, getdikcə daha geniş və dərin səviyyələrdə liderin siyasi təcrübəsinin cəmiyyətdə rolu artır. Bu kimi məqamların fəlsəfi ümumiləşdirilməsi də mövcuddur. Məsələn, hələ 2010-cu ildə İ.Uinkler yazırdı ki, mövcud yanaşmalarda liderliyə "interaktiv və mürəkkəb proses kimi baxılır". Liderlik münasibətlərinin inkişafında fərdi qavramanın vacibliyi vurğulanır.

Burada sosial sistemin dinamikası və məntiqindən qaynaqlanan mürəkkəb sosial münasibətlərin rolu ayrıca təsir gücünə malikdir. Bu sırada yeni nəzəri təlimlərdə lider və cəmiyyət üzvlərinin təcrübə mübadiləsinin xüsusi əhəmiyyət daşıması ayrıca araşdırılır.

Qeyd edilən məqamlardan aydın görünür ki, milli müstəqil dövlətdə liderin siyasi təcrübəsi çoxlu sayda aspektlərdə ümumcəmiyyət miqyasında aktuallıq kəsb edir və bütövlükdə çox əhəmiyyətlidir. Buna görə də filosoflar siyasi liderin təcrübəsinin təsiri altında formalaşması prosesini dərindən təhlil etməyə çalışırlar. Eyni zamanda, liderin öz siyasi məqsədlərinə çatmaq üçün milli ideyaya geniş istinad etməsi məsələsi aktual sayılır.

Deməli, biz faktiki olaraq liderin siyasi təcrübəsi-milli ideya münasibətlərinə iki istiqamətin qarşılıqlı əlaqəsində baxmalıyıq.

Birincisi, liderin siyasi təcrübəsinin milli ideyanın formalaşmasına göstərdiyi təsirlər kontekstində yanaşma.

İkincisi, liderin fəaliyyətində siyasi hədəflərinə çatmaq üçün milli ideyadan yararlanması aspektində yanaşma.

Fəlsəfə üçün bu iki istiqamətin qarşılıqlı təsirlərinin ümumi dinamikası aktualdır. Onun sosial-siyasi və mədəni aspektlərinin bir-birini tamamlaması şərti də önəm kəsb edir. Deməli, burada milli ideya-siyasi təcrübə münasibətlərində kollektiv şüuri təcrübə ilə fərdi şüuri təcrübə arasında nisbət fəlsəfə üçün aktuallıq kəsb edir. Həmin kontekstdə öncə mlli ideyanın tərifinə qısa nəzər salaq.

Milli ideya dəyərlər, təsəvvürlər və inamlar sistemidir. Bu komponentlər insanları ümumi məqsəd və canatmalar ətrafında birləşdirir (səfərbər edir). Bununla milli ideya həm də milli identikliyi formalaşdırır. Milli identiklik elə mürəkkəb sistemdir ki, "özüntəşkiletmə qabiliyyətinə malikdir". Eyni zamanda, milli identiklik "ictimai həyatın müxtəlif aspektlərinin siyasi tərkib hissələrindən biridir".

Yuxarıdakı ümumi nəzəri izahlardan bir vacib politoloji nəticə hasil etmək olar: liderin siyasi təcrübəsi fəaliyyətin istənilən mərhələsində milli ideya və milli identikliyin müəyyən edilməsində çox ciddi rol oynayır. Ayrıca, həm xüsusi böhranlı mərhələdə, həm də tarixi əhəmiyyəti çox böyük olan dönəmlərdə liderin siyasi təcrübəsi milli ideya və milli identikliyin müəyyən edilməsində həlledicidir!

Ümumi səviyyədə bu anlamlar Prezident İlham Əliyevin yuxarıda siyasi təcrübə ilə bağlı vurğuladığımız tezisinin nəzəri və praktiki əhəmiyyətini ifadə edirlər. Çünki Prezident İlham Əliyevin Prezidentlik dönəmi 2003-cü ildən başlamışdır və o zaman Azərbaycan ətrafında mürəkkəb (hətta turbulent) geosiyasi və geoiqtisadi situasiya mövcud idi. Bütövlükdə isə dövlətçilik baxımından həmin dönəm böyük tarixi əhəmiyyət daşıyırdı. Hər iki özəllik 2020-ci ilə qədər davam etdi. II Qarabağ müharibəsindən sonra bütövlükdə vurğulanan aspektlərdə mənzərə yeni keyfiyyət və məzmun səviyyəsinə transformasiya olundu.

Bu dəyişiklik daha böyük aktuallıqla İham Əliyevin siyasi liderlik təcrübəsini gündəmə gətirdi. Prezidentin III Şuşa Qlobal Media Forumunda yığcam, lakin dəqiq ifadə etdiyi tezis bu reallığın işığında tam əhəmiyyəti ilə yeni rakursda görünür. Nəzəri olaraq bu məsələ Azərbaycan liderinin politologiyaya gətirdiyi yeni liderlik təcrübəsi anlamını ifadə edirsə, praktiki aspektdə onun öyrənilməsi vacibliyini ön sıraya çıxarır.

Buradan üç politoloji tezis formalaşdıra bilərik:

Birincisi, İlham Əliyevin Prezidentlik təcrübəsi 2003-2020-ci illər müddətində milli ideyanın reallaşması üçün prinsipial və həlledici rol oynadı.

İkinci tezis birincinin məntiqi davamı kimi meydana gəlir: Müstəqil Azərbaycan Respublikasında dövlət quruculuğu tarixində ik dəfə olaraq Prezidentin siyasi təcrübəsi milli ideya-suverenlik qarşılıqlı əlaqəsinin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinin başlıca faktoru oldu.

Nəhayət, üçüncü tezis: Bu gedişatı vahid prosesin iki mərhələsi kimi təsəvvür etsək, liderin siyasi təcrübəsinin eksklüziv olaraq milli ideyanın reallaşması-suverenliyin təmini bağlantısının müəyyənedici paramteri kimi özünü təsdiq etdiyi qənaətini alarıq.

Bu tezislərin hər biri üzərində ayrıca dayanmaq zəruridir. Çünki onlar kompleks halında 2003-cü ildən bu yana Azərbaycanda uğurlu siyasi liderlik təcrübəsinin fəlsəfi ilə yanaşı siyasi-nəzəri mahiyyətini dərk etmək şansı verir. Bu prosesin şərti olaraq birinci mərhələsində iki strateji məqsəd bir biri ilə qarşılıqlı əlaqədə aktuallaşdırılmışdır. Onlardan biri milli ideyanı reallaşdırmaqla ərazi bütövlüyünü təmin etməkdən ibarətdir. Digəri isə ərazi bütövlüyünün bərpasından siyasi mənada cəmiyyətin bütövlüyünə konseptual və praktiki keçid etmək əsasında tam suverenliyə nail olmaqla bağlıdır. Bununla liderin siyasi təcrübəsində iki mühüm pillə birləşmiş olur – milli ideyanın reallaşmasından tam suverenliyə keçid vahid proses forması alır.

Birinci tezisin məntiqində ərazi bütövlüyünün təminindən cəmiyyətin bütövlüyünə siyasi keçidin xarakteri və məzmunu əsas yer tutur. Doğrudan da İlham Əliyev Avrasiya məkanında ilk dəfə olaraq ərazi bütövlüyünün bərpası prosesinin nəticələrindən biri kimi cəmiyyətin yeni səviyyədə bütövlüyünə nail oldu. Bunu biz, siyasi təcrübənin çox mühüm əlaməti hesab edirik. Həmin prosesi suverenliyin tam təmini tamamladı.

Beləliklə, birinci tezis prizmasında ərazi bütövlüyü tam suverenlik–cəmiyyətin birliyinin yeni səviyyəsi "qızıl üçbucağında" milli ideya iki aspektdə daha aktual görünməkdədir. Onlardan biri milli ideyanın ərazi bütövlüyü-suverenlik-toplumsal birlik keçidlərində əsas təminedici faktor olmasıdır. İkinci aspekt isə vurğulanan keyfiyyətdə milli ideyanın liderin siyasi təcrübəsinin əsas siyasi-ideoloji parametri olmasıdır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**(əvvəli qəzetin 24, 26 iyul saylarında)**

# "Tam gizli" qrifli sənədlər

## *Xəyanətlər ermənilərin türk düşmənçiliyinə ayna tutur*

Bəzi sənədlər ortaya çıxarılandan sonra Anastas Mikoyan da "xainlər" cərgəsində yer aldı. Bu şəxs son dövrlər Ermənistanda geniş və qızğın müzakirələrin mövzusuna çevrilmişdi. Əsl bolşevik olan Mikoyan Lenindən başlayaraq Brejnevə ("İliçdən İliçə") qədər SSRİ-nin bütün hökumətlərində yer almış birisidir. Bununla yanaşı, son zamanlar ortaya çıxan sənədlər onun ermənilər əleyhinə fəaliyyətdə iştirak etməsi fikrini yaratmaqdadır. Hələ 1919-cu ildə Leninə yazdığı məktubda "erməni məsələsi"ni və "erməni birləşmiş dövləti" problemini bağlamağı tövsiyə edən Mikoyan türk tərəfdarı kimi qəbul edilir. O, həmin məktubunda erməni davasını davam etdirənləri "şovinistlər" adlandırmışdı.

1920-ci il iyunun 19-da Njde və Dro Zəngəzurda Azərbaycanla real döyüş şəraitində olarkən Mikoyan bu vəziyyətdən narazı olduğunu bəyan etmişdi. 1920-ci ildə Qarabağ və Zəngəzur bolşeviklərin əlinə keçəndən sonra Mikoyan Çiçerinə bu məzmunda məktub göndərmişdi: "Ermənilər Azərbaycanla real müharibə vəziyyətindədirlər. Sovet Azərbaycanının tərkibində olan, amma mübahisəli vəziyyətə gətirilmək istənilən Zəngəzur və Qarabağa gəldikdə, qəti şəkildə bildiririk ki, bu ərazilər daim və gələcəkdə də Azərbaycanın sərhədləri daxilində qalmalıdır".

Bununla kifayətlənməyən Mikoyan 1920-ci il iyulun 29-da daha bir məktubu Qriqori Orconikidzeyə göndərib: "Mərkəzin Qarabağ və Zəngəzur siyasətinə qəzəblənmişik. Sən mərkəzdə bizim baxış bucağımızı israrla müdafiə et. Biz Ermənistanla barışmağa qarşı deyilik, amma bu, Qarabağ və Zəngəzurun hesabına olmamalıdır".

Artıq erməni mənbələrində dərc olunan sənədlər göstərir ki, bolşevik liderlərdən biri olan Hancyanın öldürülməsindən sonra 1937-ci ilin payızında Anastas Mikoyan Lavrenti Beriya ilə birlikdə Ermənistana səfər etmişdi. O, buraya partiya və dövlət kadrlarını "təmizləməyə", əslində isə, məhv etməyə gəlmişdi. Rusiya Dövlət Arxivində 1937-ci il 22 sentyabr tarixinə aid bir sənəd tapılıb. Yejovun imzası olan bu tarixi sənəddə Yejov Stalinə bildirir ki, Mikoyan "güllələnəcək Daşnaksütyun və digər antisovet elementlərin" sayının 700 nəfərə qədər artırılmasını xahiş edir. Eyni sənəddə Yejov özü güllələnəcəklərin ilkin siyahısına 1500 nəfər əlavə etməklə onu 2000-ə çatdırmağı təklif edir. Sənəd Stalin, Molotov, Kaqanoviç, Çubar və Loginov tərəfindən imzalanıb.

Mikoyanın ortaya atdığı bu təklifi Ermənistanda geniş müzakirə mövzusudur: "...Erməni millətçiləri imperialist müttəfiqlərinə və generallar Denikin kimi quldur qruplarına arxalanaraq, Qara dənizdən Aralıq dənizinə qədər uzanan yeddi vilayəti əhatə edən "Böyük Ermənistan" qurmaq kimi artıq cinayət sayılacaq xəyallara ümid bəsləyirlər. Bu ərazidə ermənilərin olmaması və yalnız müsəlman əhalinin yaşaması da onları narahat etmir. "Böyük Ermənistan" xalqın böyük əksəriyyətinin iradəsini ifadə edə bilməz, çünki onu imperialistlər silah gücü ilə zorla qəbul etdirirlər. Onlar düşünürlər ki, bunu Ermənistanın, guya, "cinayətkar qruplardan" – müsəlmanlardan təmizlənməsi yolu ilə, günahsız insanların cəsədləri üzərində qanla həyata keçirəcəklər. Belə bir cəhənnəm və vəhşilik proqramı ermənilərin ən yaxşı, bacarıqlı, sədaqətli agentlərini hədəfləyir və onların vasitəsilə Türkiyəni soymaq, müstəmləkə və müttəfiqlərin maliyyə kapitalına çevirmək istəyən imperializmin müvəffəqiyyəti üçün dəstəklənir..."

Ziddiyyətli şəxsiyyət sayılan Anastas Mikoyanın sovet rəhbəri Leninə göndərdiyi "Qafqaz məsələsi" ilə bağlı hesabatı erməni planlarının mahiyyətini ortaya qoyur. Onun fikrincə, Sovet Rusiyası üçün "Türkiyə Ermənistanı"nın müstəqilliyi ilə bağlı ümumi bəyannamənin heç bir müsbət nəticəsi olmayıb, əksinə, yalnız Türkiyəni deyil, həm də Qafqazdakı bütün müsəlman əhalini sovetlərə qarşı qıcıqlandırıb. Mikoyan erməni həmkarlarının kiçik bir qrupu ilə birlikdə "Türkiyə Ermənistana" bəyannaməsinin elan olunmasının ilk günlərindən etibarən ona qarşı olduğunu və səhvi düzəltməkdə gecikildiyini qeyd edir. Güman olunur ki, 1917-ci ilin payızında Bakı bolşeviklərinə qoşulan, partiyanın Bakı komitəsinin İdarə Heyətinin üzvü olan A.Mikoyanın mövqeyi "Qafqazın Lenini" adlandırılan S.Şaumyanın fikirlərini üstələyə bilməmişdir. "Türkiyə Ermənistanı" muxtariyyətinin ilhamvericisi və müvafiq bəyannamənin icraçısı S.Şaumyan müxtəlif bəyanatlar və hərəkətlər edib və bu məsələ "millətin öz müqəddaratını müəyyən etmək" hüququ perspektivindən yanaşılmışdır.




Son zamanlar ortaya çıxan başqa bir sənəd də var. Ermənistanın Milli Arxivində "Çox gizli" qrifi ilə tapılan yeni sənəd "Türk–Erməni müharibəsi zamanı Ermənistan Kommunist Partiyasına bağlı partiya təşkilatlarının taktiki hərəkətləri" adlanır. Sənəddə təsdiqlənir ki, Moskvadan təlimat alan erməni bolşeviklər Türkiyə ilə müharibə vəziyyətində olmanın, düşmənçilik siyasəti yürütmənin zərərli olduğunu anlamışdılar. Sənəddə göstərilir ki, Ermənistan Kommunist (bolşevik) Partiyasının Mərkəzi Komitəsi hərbi bölgələrdə, xüsusilə Qars Qarnizonunda bütün təşkilatlara xəbərdarlıq edir ki, müharibəyə qarşı təbliğat aparsınlar və aşağıdakı maddələrdən ibarət açıqcalar yaysınlar:

**1** Türkiyə əvvəlki Türkiyə deyil və onun Ermənistana qarşı heç bir hücum niyyəti yoxdur.

**2.** Kamalist Türkiyə Sovet Rusiyasının müttəfiqidir və imperializmə (İngiltərə, Fransa, Yunanıstan) qarşı milli azadlıq mübarizəsi aparır.

**3** Ermənistanın Türkiyə üzərində qələbəsi Yaxın Şərqdə imperializmin güclənməsi demək ola bilər və nəticədə sovetlərin Şərqdə, Cənubi Qafqazda inqilabın qələbəsini təhlükəyə ata bilər.

**4.** Erməni-kommunist bolşeviklərin vəzifəsi Ermənistanın məğlubiyyətini sürətləndirmək olmalıdır ki, bu da Ermənistanın sovetləşməsini yaxınlaşdıracaqdır.

Başqa bir sənəd "xainlik dosyesi" kimi təqdim olunur. 4 dekabr 1920-ci ildə "Pravda" qəzetində dərc olunan məqalədə İosif Stalin qürurla Ermənistanın sovetləşməsindən bəhs edir. Stalin müsəlmanlar və onların ətrafındakı azlıqlar arasında problemlərin həll olunduğunu bildirir. Stalin bu məqaləsində Ermənistan, Azərbaycan və Türkiyə arasında əməkdaşlıq və dostluq qurulmasından razılığını bildirir və deyir ki, "Rusiya müttəfiqi olan bolşevik türklərlə" birlikdə bütün erməniləri daşnakların əlindən azad edəcəkdir".

Erməni bolşeviklər buna həqiqətən inanırdılar. 1920-ci il avqustun 24-də Sovet Rusiyası hökuməti Türkiyənin Mustafa Kamal hökuməti ilə "ön dostluq sazişi" imzaladı. Rusiya və ermənilər imperializmə qarşı mübarizə aparmaq və müttəfiq dövlətlərin müdaxiləsini önləmək üçün Türkiyəyə hərbi yardım göstərəcəkdilər. Sazişin digər önəmli cəhəti budur ki, Türkiyə Böyük Millət Məclisi bundan əvvəl imzalanan heç bir müqaviləni, o cümlədən Sevr Sazişini tanımırdı və Ermənistanla imzalanan bütün müqavilələri qəbul etmirdi. Sovet Rusiyası isə bir türk hökuməti ilə imzaladığı beynəlxalq müqavilələri qəbul edirdi. "Türkiyə ilə ilkin dostluq sazişinin imzalanmasından bir həftə sonra, sentyabrın 1-7-də Bakıda Şərq Xalqlarının Birinci Konqresi keçirildi. Rusiya bolşevikləri Zinovyev və Radekin iştirak etdiyi bu konqresdə Ənvər paşa, Behaəttin Şakir və Xəlil paşa da iştirak edirdilər. Bolşevik A.Mikoyan bu mühüm konqresdə iştirak etmiş və xatirələrində ermənilərin qəbul etmədikləri bir çox həqiqətləri dilə gətirmişdi. Bu sənədlər də ictimaiyyətdən gizlədilmişdi.

1991-ci ildə Ermənistan müstəqilliyini elan edəndən sonra belə bir fikir vardı ki, bütün gizli arxivlər açılmalı və xalq vaxtilə nə olub-bitdiyindən xəbər tutmalıdır. Bu fikrə qarşı ən çox çıxan erməni milliyyətçiləri, Daşnaksütyun partiyasının üzvləri oldular. Daşnaksütyunun əsas arxivi Amerikada, Boston şəhərindədir, onun açılması bir çox gerçəkləri ortaya qoyacaqdı. Bu səbəbdən daşnaklar israrla etiraz edirdilər. İndinin özündə də Paşinyan hakimiyyəti həm ölkə daxilində , həm də ondan kənarda arxivlərin açılması barədə bəyanatlar səsləndirir, amma elə qüvvələr var ki, bu işin reallaşmasına mane olurlar. Ermənistanda və digər yerlərdə erməni dilində olan arxivlərin açılması onların iç üzünü göstərəcək. Ermənilərin ən çox qorxduqları məhz budur.

***Qfi a ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Zəngəzur marşrutu – Mərkəzi Asiyadan Avropa bazarlarına qapı

**Özbəkistan Nəqliyyat Nazirliyinin layihəsi çərçivəsində hazırlanan analitik hesabatda Zəngəzur dəhlizinin istismara verilməsi ilə bu marşrut boyunca yerləşən ölkələr üçün mühüm iqtisadi və logistik üstünlüklər yaranacağı vurğulanıb. Sənəddə, eyni zamanda, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin yükünü azaltmaq üçün ən optimal variantlardan birinin Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək 43 kilometrlik dəmir yolu –Zəngəzur dəhlizi olduğu bildirilib.**

Hesabatda qeyd olunur ki, dəhlizin istifadəyə verilməsi Azərbaycan ilə Türkiyə arasındakı marşrutun səmərəliyinə əhəmiyyətli dərəcədə təsir göstərəcək. Başqa sözlə, Zəngəzur marşrutu sərhədyanı Ağbənd kəndinə qədər yolların tikintisinin tamamlanmasından sonra iki ölkə arasındakı məsafəni 343 kilometr azaldacaq. Bu isə həm daşınma müddətinə, həm də nəqliyyat xərclərinə ciddi qənaət edilməsinə imkan verəcək, Gürcüstan üzərindən keçən marşrutla müqayisədə yük çatdırılma vaxtını, təxminən, bir gün azaldacaq. Bununla yanaşı, hesabatda vurğulanır ki, Zəngəzur dəhlizinin açılması BTQ dəmir yolu marşrutunun əhəmiyyətini artırmaqla bərabər, onu tamamlayan bir alternativ kimi çıxış edəcək. Hər iki stiqamət birgə şəkildə regionun tranzit potensialını gücləndirəcək.

Tədqiqat müəlliflərinin fikrincə, bu dəhliz Asiya ilə Avropa arasında uzanan nəqliyyat-logistika zəncirinin bütün iştirakçıları üçün fayda verəcək. Yeni marşrut Asiya ölkələrinin Avropa bazarlarına quru yolu ilə daha asan və sürətli çıxışını gerçəkləşdirməklə yanaşı, regionun logistik imkanlarını da əhəmiyyətli dərəcədə genişləndirəcək. Bu isə tranzit xidmətlərinə olan tələbatı artıracaq. Xüsusilə Zəngəzur dəhlizi Mərkəzi Asiya ölkələri ilə münasibətlərin inkişafını sürətləndirəcək, eyni zamanda, Azərbaycan ərazisi üzərindən Türkiyə, Rumıniya və Bolqarıstan kimi Avropa ölkələrinin bazarlarına çıxışı reallaşdıracaq.

Hesabatda qeyd olunur ki, dəhlizin tam fəaliyyətə başlaması Azərbaycan üçün hazırda prioritet istiqamətlərdən biridir. Bu layihə Ermənistan da daxil olmaqla bütün region ölkələrinin maraqlarına cavab verir. Dəhlizin işə düşməsi, həm də Azərbaycan və Ermənistan arasında birbaşa dəmir yolu əlaqəsini şərtləndirir, eləcə də Naxçıvandakı Culfa qovşağı vasitəsilə Azərbaycan, Ermənistan və İran arasında sovet dövründə fəaliyyət göstərən nəqliyyat əlaqələrini bərpa edir. Sənəddə Qars–Gümrü–Naxçıvan–Meğri–Bakı marşrutunun formalaşmasının Türkiyə ilə region ölkələri arasında birbaşa dəmir yolu əlaqəsinin qurulmasına imkan verəcəyi, bununla da regionlararası əməkdaşlığın inkişafının və iqtisadi inteqrasiyanın daha da sürətlənəcəyi diqqətə çatdırılır.

Beləliklə, Zəngəzur dəhlizinin açılması həm qlobal, həm də regional logistika baxımından zamanı və xərci azaldacaq. İnfrastrukturun reallaşması Şərq-Qərb



marşurutunda məsafəni qısaldacaq. Ən vacib məqamlardan biri isə Qara dənizlə yanaşı, artıq Aralıq dənizinə də çıxış imkanı əldə ediləcək. Rəqabətlilik artacağı üçün qiymətlər də tənzimlənəcək, bu isə Azərbaycana cəlb edilən yük həcminin artımına səbəb olacaq. Bu yüklərin cəlbindən bütün region ölkələri qazanacaq. Məsələn, Çindən Avropa istiqamətinə 500 min TEU konteyner göndərilərsə, bunun bir qismi Gürcüstan üzərindən, bir qismi isə Zəngəzur dəhlizi vasitəsilə çatdırlacaq ki, bu isə həm zaman, həm də məsrəflərin azalmasına səbəb olacaq.

Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyətindən bəhs edərkən bir məqama da toxunmaq istərdik. Bunun üçün əvvəlcə Orta Dəhlizin fəaliyyətinə nəzər salaq. Hesablamalar göstərir ki, Çindən Avropaya gedən yük qatarı bu dəhliz vasitəsilə 12 gün ərzində 7 min kilometr məsafə qət edir. Bu da Asiya ilə Avropa arasında qlobal ticarətdə adıçəkilən infrastrukturun nə qədər sərfəli və təhlükəsiz olduğunu göstərir. Halbuki eyni qatar Cənub Dəhlizi üzrə Süveyş kanalı üzərindən gəmi ilə 20 min kilometr yol qət edir. Bu mənada Azərbaycanın reallaşmasına töhfə verdiyi Orta Dəhliz öz imkanları ilə şübhəsiz ki, region ölkələrinin koordinasiyalı əməkdaşlığı sayəsində dünya ticarətinin ən mühüm həlqələrindən biri kimi diqqət çəkir. Zəngəzur dəhlizinin də Orta Dəhlizə inteqrasiya ediləcəyi nəzərdə tutulur. Belə halda Azərbaycan ərazisindən illik, təxminən, 35 milyon ton yükün daşınmasına imkan yaranar.

Zəngəzur dəhlizinin istismara verilməsi ilə, ilk növbədə, Naxçıvan Muxtar Respublikası iqtisadiyyatı milli iqtisadi proseslərə inteqrasiya olunacaq. Bu, Naxçıvanda istehsal edilən sənaye və kənd təsərrüfatı məhsullarının istər ölkəmizin paytaxtına, istərdə də digər regionlara maneəsiz, eyni zamanda, vaxt itkisi olmadan çatıdırlmasını şərtləndirəcək. Bununla yanaşı, respublikamızın digər bölgələrində fəaliyyət göstərən iş adamlarının naxçıvanlı sahibkarlarla ortaq istehsal və biznes layihələrinin həyata keçirilməsinə əlverişli şərait yaranacaq.

Sonda "Fitch Group"a aid olan "Fitch Solutions" şirkətinin Azərbaycanla bağlı hesabatında Zəngəzur dəhlizi ilə bağlı bir məqamı xatırlatmaq istərdik. Belə ki, həmin hesabatda Zəngəzur dəhlizinin reallaşması ilə respublikamızın Cənubi Qafqaz regionunda strateji mövqeyinin əhəmiyyətli dərəcədə güclənəcəyi bildirilib. Qeyd olunur ki, 2023-cü ildə Qarabağ üzərində tam nəzarəti bərpa edən Azərbaycan hazırda regionda nəqliyyat əlaqələrinin inkişafına və Naxçıvan Muxtar Respublikası ilə birbaşa quru yolunun qurulmasına yönələn layihələrə diqqət yetirir. Hesabata əsasən, Ermənistanın cənub ərazisindən keçməsi planlaşdırılan Zəngəzur dəhlizi Azərbaycanı Naxçıvan və Türkiyə ilə birləşdirəcək. Bu yeni nəqliyyat marşrutu alternativ bağlantı imkanları yaradacaq və Azərbaycanın həm Xəzər, həm də Qara Dəniz hövzəsinə çıxışını genişləndirəcək.

# "Şahdəniz-2" – Azərbaycanı iri qaz ölkəsinə çevirən yataq

(əvvəli 1-ci səhifədə)

1999-cu ilin yayında "Şahdəniz"də qazılmış ilk kəşfiyyat quyusunda əldə edilmiş nəticələrin təqdimatına həsr olunmuş təntənəli mərasimdə Azərbaycanın yeni neft strategiyasının memarı, ulu öndər Heydər Əliyevə bu yatağın təbii qazla zəngin olması ilə bağlı məlumat verilib. Beləliklə, Azərbaycanın neft və qaz ehtiyatları

Həmin il dekabrın 17-də isə Bakıda "Şahdəniz-2" layihəsi üzrə yekun investisiya qərarı imzalanıb. Bununla da, "Şahdəniz" yatağının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş həlledici mərhələyə qədəm qoyub. Bu qərar Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz boru kəmərinin ixrac gücünə ildə 16 milyard kubmetr əlavə olunması (Azərbaycanda 48 düyməlik yeni boru

min 500 boru qovşağından, 881 kilometr kabel xəttindən ibarətdir. Üst tikililərin quraşdırma işləri 3 il ərzində tamamlanıb və son dərəcədə yüksək texniki təhlükəsizlik göstəriciləri ilə həyata keçirilib. Ümumilikdə isə, dənizə yola salınan yaşayış blokları və texnoloji təchizat platformasının üst modullarının tikintisi planlaşdırılmış qrafikdən tez yekunlaşıb ki, bu da "Şahdəniz-2" layihəsi üzrə ilk qazın



ilə zənginliyi bir daha bütün dünyaya nümayiş etdirilib. "Şahdəniz"də 1 trilyon kubmetrdən artıq qaz ehtiyatlarının mövcudluğunu nəzərə alan konsorsium iştirakçıları yatağın bir neçə mərhələdə işlənməsi təklifi ilə çıxış ediblər. Yatağın birinci mərhələsi çərçivəsində quraşdırılmış platformadan (Şahdəniz-Alfa) ilk qazın hasilatına 2006-cı ilin sonlarında start verilib. 2007-ci ilin əvvəllərindən etibarən isə birinci mərhələ qazının Cənubi Qafqaz boru kəməri ilə Gürcüstan və Türkiyəyə nəqlinə başlanılıb.

2013-cü il sentyabrın 19-da "Şahdəniz" müqaviləsi üzrə "Mərhələ-2" layihəsi çərçivəsində qazın Avropadakı istehlakçılarla alqı-satqısına dair sazişlər imzalanıb. Həmin sazişlərə əsasən "Şahdəniz-2" layihəsi çərçivəsində qazın "Cənub Qaz Dəhlizi" ilə ilk dəfə olaraq Azərbaycandan Avropaya birbaşa çatdırılması nəzərdə tutulurdu. Bu da "Şahdəniz" yatağının ikinci işlənmə mərhələsində hasil ediləcək ildə 16 milyard kubmetr qazın Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya ərazisindən və Adriatik dənizinin dibindən keçməklə İtaliyaya qədər 3500 kilometrdən artıq uzanan boru kəmərləri vasitəsilə çatdırılması demək idi.

kəməri, Gürcüstanda isə iki kompressor stansiyası), Türkiyə ərazisindən keçən TANAP və Yunanıstan, Albaniya ərazisindən keçərək İtaliyaya uzanan TAP kəmərlərinin tikintisi ilə bağlı planların gerçəkləşməsinə imkan yaradıb. Təxminən 28 milyard ABŞ dolları həcmində investisiya qoyulmuş bu layihə, ümumilikdə, planlaşdırılmış ən azı 26 sualtı quyudan, bir-birinə körpü ilə birləşdirilmiş iki platformadan, 500 kilometr uzunluğunda sualtı boru kəmərləri və axın xətlərindən, Bakı yaxınlığında yerləşən Səngəçal terminalındakı əsaslı genişləndirmə işlərindən və Azərbaycan ərazisində 428 kilometr uzunluğunda yeni boru kəmərini, Gürcüstan ərazisində 59 kilometr uzunluğunda yeni boru kəmərini və 2 yeni kompressor stansiyasını əhatə edən Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsindən ibarətdir.

Azərbaycanın "Şahdəniz-2" layihəsi çərçivəsində ilk dəfə olaraq Xəzər dənizində yatağın sualtı işlənilməsi texnologiyası tətbiq olunur. Bu da BP şirkətinin bu vaxtadək operatoru olduğu ən iri sualtı infrasrukturdur. "Şahdəniz-2" platformalarının tikintisi 100 faiz ölkə daxilində həyata keçirilib. Bu tikililərin ümumi çəkisi 29 min 200 ton təşkil edir. Həmin tikililər 16

nəzərdə tutulmuş vaxtda çıxarılmasına imkan yaradıb.

Qeyd edək ki, "Şahdəniz-2" ilk dəfə olaraq Xəzər qazını Avropa bazarına çıxaracaq yeni "Cənub Qaz Dəhlizi"nin başlanğıc nöqtəsidir. Ən yüksək sabit hasilat zamanı bu layihənin mövcud hasilat həcmlərinə ildə 16 milyard kubmetr qaz əlavə edilməsi nəzərdə tutulur. "Şahdəniz"in ümumi hasilatının isə birinci mərhələ də daxil olmaqla ildə 26 milyard kubmetr qaz və gündəlik 120 min barel kondensat həcminə çatdırılacağı gözlənilir. Ötən müddətdə layihə çərçivəsində 22 quyu qazılıb. Həmin quyulardan isə indiyədək, təqribən, 100 milyard kubmetr qaz çıxarılıb.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "Şahdəniz-2" dünyanın ən iri enerji layihələrindən biridir. Bu layihə enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Azərbaycan 31 il əvvəl "Əsrin müqaviləsi"ni imzalamaqla Xəzər dənizini xarici sərmayələrə açmış və ölkəmizin uğurlu iqtisadi inkişafını təmin etmişdir. Həmin müqavilə XX əsrin müqaviləsi adlandırılmışdırsa, "Şahdəniz-2" XXI əsrin ən iri enerji layihələrindən biri sayılır.

# Murov aşırımını qısaldan layihə



(əvvəli 1-ci səhifədə)

Bu ərazidə dünyanın ən uzun avtomobil tunellərindən biri olacaq Murovdağ tunelinin inşası aparılır. Ümumi uzunluğu 23401.8 metr olan tunel iki gediş və iki gəliş olmaqla 4 hərəkət zolaqlı olacaq. Bundan əlavə, layihə çərçivəsində 561,2 metr, 626,9 metr, 500 metr və 947,9 metr uzunluğunda daha 4 tunel də tikilir.

Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolu Göygölün Toğanalı kəndindən başlayaraq işğaldan azad edilən Kəlbəcər rayonunun ərazisindən keçir. Bu yol rayon mərkəzi ilə yanaşı, bölgənin bir çox yaşayış məntəqələrinə və məşhur İstisu istirahət zonası istiqamətinə rahat və təhlükəsiz nəqliyyat əlaqəsini təmin edəcək.

# 27 sahibkar da "Startap"çı oldu

**Cari ilin yanvar-iyun aylarında 54 mikro və kiçik sahibkar "Startap" şəhadətnaməsi almaq üçün İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) müraciət edib.**




KOBİA-dan verilən məlumata əsasən, Nazirlər Kabinetinin 29 yanvar 2021-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Startapın müəyyən olunması meyarları"na əsasən Ekspertlər Şurası tərəfindən 27 mikro və kiçik sahibkara "Startap" şəhadətnaməsinin verilməsi barədə qərar qəbul olunub. Şəhadətnamə almış sahibkarların 23-ü hüquqi, 4-ü isə fiziki şəxsdir. Onlardan 23-ü mikro, 4-ü kiçik sahibkarlıq subyektidir. "Startap" şəhadətnaməsi almış kiçik və orta biznes subyektlərinin 20-si Bakı şəhərində, 7-si isə regionlarda fəaliyyət göstərir. Şəhadətnamə almış sahibkarların 4-ü qadındır.

"Startap" şəhadətnaməsi almış layihələr fintek, təhsil, ictimai iaşə, İKT, sənaye, turizm, biznesin rəqəmsallaşması, elektron ticarət sahələri üzrə innovativ həlləri özündə ehtiva edən mobil tətbiq və onlayn xidmətlərdir. Ümumilikdə isə, ölkə üzrə indiyədək 215 mikro və kiçik sahibkarlıq subyektinə "Startap" şəhadətnaməsi verilib.

Xatırladaq ki, Azərbaycanda "Startap" şəhadətnaməsinin verilməsinə 2021-ci ildən başlanılıb. KOBİA tərəfindən verilən bu sənəd sahibkarı 3 il müddətinə innovasiya fəaliyyətindən əldə etdiyi gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən azad edir. Eyni zamanda, "Startap" şəhadətnaməsi layihəyə yerli və xarici investorların marağını artırır, xarici bazarlara çıxışını asanlaşdırır.

# Milli qızıl ehtiyatı 181 tonu ötüb

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) qızıla yatırılan investisiyanın həcmini artırıb. Bununla bağlı qurumdan redaksiyamıza bildirilib ki, 2025-ci ilin I yarımilində fondun sərmayə portfelinin 19 milyard 133,2 milyon dollarlıq hissəsini (28,8 faiz) qızıl investisiyaları təşkil edib.**

6 ay ərzində ARDNF qızıla olan investisiyalarını 6 milyard 778,6 milyon dollar artırıb. Belə ki, ötən ilin sonunda fonddun investisiya portfelinin 12 milyard 354,6 milyon dollarlıq hissəsini (20,6 faiz) qızıl investisiyaları təşkil edib.

Qeyd edək ki, ARDNF bu ilin II rübündə 15,8 ton qızıl alıb. Belə ki, 2025-ci ilin 1 aprel tarixinə fondun qızıl ehtiyatı 165,3 ton təşkil etdiyi halda bu il iyul 1-nə bu rəqəm 181,1 tona qədər yüksəlib. Ümumilikdə isə ARDNF 2025-ci ilin əvvəlindən indiyə kimi 34,5 ton qızıl alıb.



***Səhifəni hazırladı:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan–UNICEF əməkdaşlıq müzakirəsi



**İyulun 29-da xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Uşaq Fondunun (UNICEF) ölkəmizdə diplomatik fəaliyyəti başa çatan nümayəndəsi Saja Farooq Abdullahla görüşüb.**

Nazir Azərbaycanda fəaliyyəti dövründə UNICEF-lə əməkdaşlığın inkişafı istiqamətində göstərdiyi səylərə görə Saja Farooq Abdullaha təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə Azərbaycan ilə BMT, o cümlədən UNICEF arasında mövcud əməkdaşlıq məsələləri müzakirə edilib, Azərbaycanda və digər ölkələrdə həyata keçirilən birgə təşəbbüslərdən, layihələrdən bəhs olunub. Azərbaycanda uşaqların həyat və sağlamlığı, təhsili istiqamətində həyata keçirilən birgə layihələrlə yanaşı, ölkəmizin donor qismində çıxış etdiyi layihələrin, xüsusilə Fələstində orta məktəbin inşası təşəbbüsünün əlaqələndirilməsində UNICEF-lə əməkdaşlığın əhəmiyyəti qeyd olunub.

Qarşı tərəf UNICEF-in nümayəndəsi qismində Azərbaycanda çalışdığı müddətdə göstərilən dəstək və əməkdaşlığa görə təşəkkür edib, Azərbaycan–UNICEF əməkdaşlığının bundan sonra da inkişaf etdirilməsi istiqamətində arzularını çatdırıb.

*XQ*

# Xıdırlı köçkünləri də Ağdama qayıdırlar



**Dünən Ağdamın Xıdırlı kəndinə 60 ailə - 236 nəfər köçürülüb. Köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub. Onlara mənzillərin açarı təqdim edilib və ailələr yeni evlərində yerləşiblər.**

Xatırladaq ki, keçmiş məcburi köçkünlər üçün doğma ata-baba yurdlarında - Xıdırlıda dövlət tərəfindən fərdi yaşayış evləri inşa olunub, müasir infrastruktur yaradılıb. Burada çoxfunksiyalı inzibati binanın, klub-icma mərkəzinin, bazar kompleksi, tibb məntəqəsinin, təcili tibbi yardım bölməsinin, təhsil və səhiyyə işçilərinin müvəqqəti yaşayışı üçün qonaq evinin, məişət xidməti obyektinin, emalatxananın, tam orta məktəbin, körpələr evi-uşaq bağçasının inşası həyata keçirilib.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda ümumilikdə 50 mindən çox insan yaşayır.

*"Yaşıl" aksiya*



# Heyvanları dustaq etməyin!

**İDEA İctimai Birliyinin təşəbbüsü ilə Daxili İşlər Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həmçinin Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələrinin iştirakı ilə Xəzər rayonunun Buzovna qəsəbəsində yerləşən, atçılıq mərkəzi və restoran kimi fəaliyyət göstərən iaşə obyektində təcili araşdırma tədbirləri həyata keçirilib.**



Birgə keçirilən yoxlama zamanı "The Farm" adı altında fəaliyyət göstərən obyektin ərazisində qanunsuz şəkildə 9 baş xallı maral və makaka növünə aid 1 baş meymunun saxlanıldığı müəyyən edilib.

Heyvanlar İDEA Heyvanlara Qayğı Mərkəzi və Bakı Zooloji Parkının baytar mütəxəssisləri tərəfindən ərazidən götürülərək ilkin olaraq klinik şəraitdə tibbi müayinədən keçirilib. Daha sonra onların sağlam və təhlükəsiz şəraitdə yaşamasını təmin etmək məqsədilə Bakı Zooloji Parkına təhvil verilməsi təmin olunub.

İDEA İctimai Birliyi vətəndaşlara bir daha müraciət edərək ev heyvanlarına qarşı qayğıkeş və məsuliyyətli münasibət göstərməyə, vəhşi heyvanların qanunsuz saxlanmasına yol verməməyə çağırır. Belə hallarla rastlaşan şəxslərdən "Təbiətə Təcili Yardım" proqramı çərçivəsində fəaliyyət göstərən "1113" qaynar xəttinə və ya İDEA İctimai Birliyinin rəsmi sosial media hesablarına məlumat verməsi xahiş olunur.

*XQ*

## Xuntaçıların məhkəməsi

# Ruben Vardanyanın "Qarabağ sərgüzəştləri"nə məhkəmə baxışı





**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi iyulun 29-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesinə ilk dəfə qatılan zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxs İsa Kəlbiyevin hüquqi varisi - atası Rəhim Kəlbiyev ifadəsində övladının Kəlbəcər rayonunda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində həlak olduğunu bildirib.

Zərərçəkmiş şəxs Məhəmməd Xəlilin hüquqi varisi - atası İlqar Xəlilov övladının Xocavənddə düşmən tərəfindən açılmış atəş nəticəsində həlak olduğunu söyləyib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş şəxs Kamran İsgəndərli Kəlbəcərdə Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılmış artilleriya mərmisinin yaxınlığında partlaması nəticəsində xəsarət aldığını deyib. O bildirib ki, hadisə zamanı daha üç nəfər həlak olub, yeddi nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zərərçəkmiş Əlifəndi Fərziyev Xocalıda atılmış artilleriya mərmisinin partlaması nəticəsində xəsarətlər aldığını qeyd edib.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş Elgün Məmmədli Laçında Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində yaralandığını deyib. O əlavə edib ki, ayağından yaralanıb və qapalı kəllə-beyin travması alıb.



Elçin İsmayılov ifadəsində düşmənin odlu silahdan açdığı atəşlər nəticəsində yaralandığını bildirib.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş Nadir Rzayev Ağdərə istiqamətində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılmış artilleriya mərmisinin partlaması nəticəsində xəsarət aldığını söyləyib.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkmiş Pənah Sadıxov Laçında düşmənin müxtəlif silahlardan açdığı atəş nəticəsində yaralandığını diqqətə çatdırıb.

Nurlan İsmayılov ifadəsində Laçında düşmənin açdığı artilleriya atəşi nəticəsində xəsarət aldığını qeyd edib. Vurğulayıb ki, həmin vaxt ondan başqa daha iki nəfər xəsarət alıb, iki nəfər isə həlak olub.

Ələkbər Paşayev ifadəsində Kəlbəcərdə Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində qapalı kəllə-beyin travması aldığını bildirib.

Təbriz Məmizadə ifadəsində Kəlbəcərdə açılmış atəş nəticəsində xəsarət aldığını deyib.

Hacıbaba Quliyev isə Ağdamda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində sağ ayağından yaralandığını qeyd edib.

Zərərçəkmiş digər şəxslər Amin Rəhmətzadə, Murad Babazadə, Ceyhun Quliyev, Elçin Zeynalzadə, Ziyafəddin Ramazanov və Elnur Bədəlov ifadələrində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəşlər nəticəsində xəsarət aldıqlarını söyləyiblər.

Məhkəmənin növbəti iclası avqustun 5-nə təyin olunub.

*XQ*

(əvvəli 1-ci səhifədə)

# Qərbi Azərbaycan soyqırımları erməni mənbələrində

**Bu deportasiya və soyqırımları tarixdə silinməz izlər qoyduğu kimi, törətdikləri zorakılıq və qətliamları mili qəhrəmanlıq sayan, etnik öyünc mənbəyinə çevirən ermənilərin öz siyasətçi və yazarları da bu qanlı xronikaları müxtəlif şəkildə təsdiqləmişlər. Ermənilərin türk soyuna, xüsusən azərbaycanlılara qarşı düşmənçiliyinin, törətdikləri cinayətlərin davamlı və fədakar araşdırıcısı, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafanın "1905–1906-cı illərdə azərbaycanlılara qarşı törədilən qırğınlar erməni müəlliflərinin etiraflarında" adlı tədqiqatında bu barədə ətraflı söhbət açılır. Tarixçi alim XQ-yə açıqlamasında bildirdi:**

– XIX əsrin sonu, XX əsrin əvvəllərində İstər Osmanlı Türkiyəsində, istərsə də Cənubi Qafqazda türk-müsəlman əhaliyə qarşı həyata keçirilən qırğınlar və terror aktları "Armenakan" (1885), "Hnçak" (1887) və "Daşnaksutyun" (1897) partiyaları və onların silahlı dəstələri vasitəsilə həyata keçirilmişdi. 1894–1896-cı illərdə ermənilərin Şərqi Anadoluda törətdikləri iğtişaşlar yatırıldıqdan sonra həmin iğtişaşların təşkilatçılarının və iştirakçılarının əksəriyyəti Cənubi Qafqaza axışmışdı. Erməni siyasi partiyaları Türkiyə ərazisində muxtariyyət əldə etməyin mümkünsüzlüyünü dərk etdikdən sonra, XX əsrin ilk illərində öz proqramlarında dəyişiklik edərək, fəaliyyətlərinin ağırlıq mərkəzini Türkiyə ərazisindən Cənubi Qafqaza keçirmişdilər.

Ermənilərin məqsədi tarixi Azərbaycan torpaqları hesabına erməni dövlətinin əsasını qoymaq və sonradan müxtəlif yollarla onu genişləndirməklə. "Böyük Ermənistan" ideyasını həyata keçirməkdən ibarət idi. Rus müəllifi N.Şavrovun yazdığına görə, 1896-cı ildə Cənubi Qafqazda 900 min, 1908-ci ildə 1, 3 milyon erməni yaşamışdır. Deməli, 12 illik bir dövrdə Cənubi Qafqaza 400 min erməni gəlib yerləşmişdi. Həmin dövrdə Cənubi Qafqazda törədilən cinayətlərin 80 faizi Türkiyədən gəlmiş ermənilərin və muzdlu qatillərin payına düşürdü.

Qafqazda ermənilərin törətdikləri qırğınların qarşısının vaxtında alınmamasının bir səbəbi hökumət məmurlarının ermənilərin terror hədələrindən çəkinmələri idisə, digər səbəbi Qafqazın canişini İ.Voronsov-Daşkovun erməni dairələrinin təsiri altında olması idi. Erməni tədqiqatçısı Anahid Lalayanın yazdığı kimi, Voronsov-Daşkovun arvadı Yelizaveta Qriqoryevna "Daşnaksutyun" partiyasının Tiflis bürosunun rəhbərlərindən biri yepiskop Mesropun məşuqəsi idi və Qafqaz Canişinliyinin ermənilərin mənafeyi ilə bağlı qərarları Voronsov-Daşkovun yataq otağında hazırlanırdı.

XX əsrin əvvəllərində Qafqazda mövcud olan 54 qəzadan yalnız 5-də ermənilər çoxluq təşkil edirdilər. İrəvan quberniyasındakı 7 qəzadan 3-də, Yelizavetpol quberniyasındakı 8 qəzadan yalnız 1-də ermənilərin say üstünlüyü var idi. 1905–1906-cı illər qırğınları ərəfəsində İrəvan quberniyasında mövcud olan 1301 yaşayış məntəqəsindən 959-da azərbaycanlılar, 342-də ermənilər məskunlaşmışdılar. Yelizavetpol quberniyasında isə 1613 kənddən 390-da ermənilər yaşayırdılar. Ermənilərin XIX əsrdə İran və Türkiyə ərazilərindən köçürülərək gətirilib yerləşdirilmələrindən sonra hər iki qurberniyada az miqdarda ermənilərlə azərbaycanlıların qarışıq yaşadıqları yaşayış məntəqələri əmələ gəlmişdi.

1905-ci ildə Rusiyada hakimiyyət əleyhinə üsyanların və iğtişaşların baş verməsi və çarizmə qarşı narazılıq dalğasının güclənməsi Cənubi Qafqazda da güclü əks-səda doğurduğunu xatırladan müsahibimiz qeyd etdi ki, bu qarışıqlıqdan ermənilər məharətlə istifadə etmişdilər:

– Qafqaz Canişinliyinin yüksək rütbəli erməni və ermənipərəst məmurları vasitəsilə silahlandırılan erməni dəstələri 1905-ci ildə Cənubi Qafqazda azərbaycanlıların kompakt yaşadıqları ərazilərə silahlı hücumlar edib etnik təmizləmə həyata keçirməklə, həmin ərazilərdə Türkiyədən qaçıb gələn erməniləri məkunlaşdırmaqla özlərinin say üstünlüyünə nail olmaq, sonra isə yeni yaranan erməni anklavlarını birləşdirməklə, erməni dövlətinin əsasını qoymaq istəyirdilər. "Hnçak" partiyasının proqramına əsasən yaradılması nəzərdə tutulan erməni dövləti Cənubi Qafqazın, Şərqi Anadolunu və Cənubi Azərbaycanın bir hissəsini əhatə etməli idi.



1905-ci il fevralın 6-da Bakıda başlanan ilk qırğınlar 1906-cı ilin payızınadək bir-birinin ardınca İrəvan, Eçmiədzin, Naxçıvan, Sürməli, Şərur-Dərələyəz, Novo-Bəyazid, Zəngəzur, Gəncə, Cavanşır, Şuşa, Cəbrayıl, Qazax, Borçalı qəzalarında davam etdirilmişdi. Erməni silahlı dəstələrinin cənubi Qafqazda törətdikləri kütləvi qırğınlar və terror aktları barədə o dövrün mətbuatında və ayrı-ayrı müəlliflərin əsərlərində kifayət qədər faktlar mövcuddur. Ən önəmlisi isə həmin faktları erməni müəlliflərinin özlərinin etiraf etmələridir.

Nazim Mustafa konkret faktlardan söz açaraq söylədi ki, 1905–1906-cı illər qırğınları zamanı ermənilərin törətdikləri vəhşiliklər barədə əsl adı Hovannes Ter-Martirosyan olan, lakin əsərlərini "A-Do" imzası ilə çap etdirən erməni müəllifinin 1907-ci ildə İrəvanda erməni dilində çap edilən irihəcmli "Qafqazda erməni-türk toqquşmaları (1905-1906-cı illər). Sənədli, statistik, topoqrafik izahlarla" əsərində kifayət qədər məlumat yer almışdır:

– Erməni müəllif həmin dövrdə Cənubi Qafqazın 12 qəzasında və 7 şəhərində baş verən qırğınlar barəsində xronoloji ardıcıllıqla məlumat verir. Hovannes Ter-Martirosyan qırğınlar baş verən bölgələri bir-birinin ardınca gəzmiş və həmin kitabı yazmaq üçün faktoloji materiallar toplamışdır. A-Do həmin əsərində 1905-ci ildə İrəvan qəzasında toqquşmalar zamanı azərbaycanlı əhalinin tərk etmək məcburiyyətində qaldığı və böyük itkilər verdiyi kəndlərin siyahısını təqdim edir. İrəvan qəzasında törədilən qırğınlar haqqında A-Do yazır ki, mayın 26-da ermənilər Mədinə türk kəndinə hücum etdilər. Daha sonra o, Məngüs kəndi ətrafında qızğın döyüşlər getdiyini yazır. Müəllif azərbaycanlı əhalinin kəndi tərk etmək məcburiyyətində qalmasından ermənilərin evləri talan etdiklərini qeyd edir.

A-Do yazır ki, 1905-ci ildə təkcə İrəvan qəzasında 7 türk kəndi hadisələrin qurbanı olmuşdur. Həmin türk kəndləri bunlardır: Güvəcik, Güllücə, Məngüs, Damagirməz, Tutiyə, Kamal, Məsimli. Erməni siyasi partiyalarının silahlı dəstələri növbəti qırğınları Dərələyəz mahalında törətmişdilər. İlk qırğınlar azərbaycanlıların ermənilərlə qarışıq yaşadıqları kəndlərdə - Qndevaz və Herher kəndlərində törədilmişdi. A-Do dolayısı ilə olsa da, qırğınların törədilməsində "təcrübəli daşnaksakanların bir neçə özünümüdafiə dəstələrinin fəal rolunu" etiraf edir.



A-Do Eçmiədzin qəzasının Üşü kəndində ermənilərin törətdikləri faciənin miqyasını göstərərək yazır ki, öldürülən üşülülərin sayı 100-ə çatırdı, qadın və uşaqlar, qoca və körpələr qırğınlardan qurtulmaq üçün vay-şivən qoparırdılar: "Üşü yandırıldı, dağıdıldı, yerlə-yeksan edildi, bir kənd də belə silindi, administrasiya yenə də yox idi". Sonra A-Do əlavə edir: "Üşünün faciəsi türklərin üzərində elə bir dəhşətli iz buraxdı ki, iyunun 5-də bir sıra kəndlər bir tərəfdən boşalır, digər tərəfdən isə ermənilər tərəfindən talan edilir və yandırılırdı. Nəziravan və Təkiyə kəndləri yandırıldı, Persi, Əngirsək, Kürdəli, Hamamlı kəndləri və Çobankərə obası talan edildi. Beləliklə, Əştərək bölgəsinin 9 türk kəndinin əhalisi talan edildi, yandırıldı və çöllərə düşdü".

Həmin müəllif Zəngəzurun ermənilərlə azərbaycanlıların qarışıq yaşadıqları Dərabas kəndində erməni canilərinin törətdikləri vəhşiliklərin şahidi olmuşdur. 1905-ci il dekabrın 26-da erməni silahlıları azərbaycanlı evlərinə hücum edirlər. Kəndin əhalisinin bir hissəsi dağlara qaçır, qalanları isə kənddəki üç böyük evdə – Molla Əbülhəsən, Ələkbər bəy və Abbas Ələkbər oğlunun evlərində sığınacaq tapırlar.

A-Do həmin tükürpədici vəhşiliyi belə təsvir edir: "Evlərində gizlənmiş ermənilər onlara köməyə gələnlərin qışqırıqlarını eşidən kimi vəhşicəsinə küçəyə atıldılar, türklərin evlərinə hücum edərək talan edib yandırdılar. Öldürülmüş və yandırılmış, meyitləri səpələnmiş adamların sayı 272 nəfərə çatırdı". Daha sonra A-Do yazır ki, 1905-ci il dekabrın 29-da Tatev erməniləri azərbaycanlıların yaşadıqları Kürdlər kəndinə hücum etmiş, lakin çoxsaylı itki verərək kəndi tərk etmək məcburiyyətində qalmışdılar. Kənd talan edilmiş, sonra isə yandırılaraq xarabalığa çevrilmişdi.

A-Do Zəngəzurda dağıntılara məruz qoyulan 43 azərbaycanlı kəndlərinin adlarını aşağıdakı kimi təsbit etmişdir: Bayandur, Hələk, Binəyeri, Kosalar, Malıbəyli, Cağazur, Çaylı, Kalavalax, Novruzlu, Cicimli, Hacılar, Bağırbəyli, Qarahunc, Unanav, Kürdlər, Ağvani, Armudlu (Danzaver), Sisyan, Ağudi, Dərəbas, Pul, Ərikli, Şükar, Məliklər, Yeməzli, Xəştap, Almalı, Karxana, Qatar, Cıbıllı, Xələc, Keçi-Şabadin, İncəvar, Çullu, Oxçu, Atqız, Pirdavudan, Arçasur, Əclıli, Buğacıq, Kollu-Qışlaq, Mtnadzor, Sanalı.

1905-ci il avqust və 1906-cı ilin avqust aylarında erməni silahlı dəstələrinin hücumları nəticəsində Cəbrayıl-Qaryagin qəzasında 10 azərbaycanlı kəndi darmadağın edilmişdi. A-Do yazır ki, azərbaycanlıların əks həmləsindən sonra ermənilər qırğınları dayandırmaq məcburiyyətində qalmışdılar.

A-Do 1905-1906-cı illərdə baş vermiş digər qırğınlar barədə də xeyli məlumat verir. O, yekun olaraq Cənubi Qafqazın 7 şəhərinin böyük dağıntılara məruz qaldığını, 12 qəzada 252 kəndin yandırıldığını və viran qoyulduğunu, 100 min nəfərin qəzalardan, bir neçə min nəfərin şəhərlərdəki ev-eşiklərindən didərgin düşdüyünü, 10 min nəfərin məhv edildiyini yazır.

Digər erməni müəllifi Stepan Zavaryan da A-Donun 1905-1906-cı illərdə Zəngəzurda törədilən qırğınlar barədə verdiyi statistik məlumatları təsdiqləyir. S.Zavaryan qeyd edir ki, həmin dövrdə Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 müsəlman kəndi, ümumilikdə isə həmin bölgələrdə ermənilər tərəfindən 75 kənd dağıdılmışdır.

Müsahibimiz daha sonra "Leo" imzalı erməni tarixçisi, şuşalı Arakel Babaxanyanın "Keçmişdən" adlı əsərindən, xankəndili Hovanes Apresyanın xatirələrindən söhbət açaraq bildirdi:

– Leo yazıb ki, 1 avqust 1903-cü il tarixli fərmanı ilə hökumət "Daşnaksutyun"u öz tərəfinə çəkəcəyini zənn edirdi. Lakin belə olmadı. Hökumət "Daşnaksutyun" partiyasını ona görə tərksilah edə bilmirdi ki, o, çox güclü silahlanmışdı və regiona hakim kəsilmişdi. Daha sonra müəllif yazır ki, "fədailər" Zəngəzur qəzasında və digər qəzaların kəndlərində elə dəhşətli zorakılıqlar törətdilər ki, bu cür zorakılıqların törədilməsi heç zaman xatırlanmır.

Leonard Ramsden Hartillin müəllifliyi ilə 1928-ci ildə ABŞ-ın İndianapolis şəhərində çap edilən "İnsanlar belə imiş" kitabı Hovanes Apresyanın xatirələri əsasında qələmə alınmışdır. Azərbaycanlılarla ermənilərin qarışıq şəkildə yaşadıqları Xankəndidə 1892-ci ildə doğulan, ilk təhsilini Şuşada alan Hovanes Apresyan isə öz xatirələrində 1905–1906-cı illər və 1918–1920-ci illərdə etməni silahlı dəstələrinin Qarabağda, İrəvan quberniyasında və Qars vilayətində törətdikləri qırğınlar və insanlığa sığmayan vəhşiliklərdən bəhs edir: "Bu yerlərin sakinləri türklər və ermənilərdir. Əslində, bir türk yurdu olan bu diyarda ermənilər gəlmə idilər. Sayca çoxluq təşkil edən müsəlman türkləri arasında bir xristian azlığı halında yaşayırdıq. İrq-din, adət-ənənə ayrılıqlarının bu iki toplum arasında yaratdığı məsafə heç zaman aradan götürülməmişdi".

O, ermənilərin rus ordusunda xidmət etdiklərini və yaxşı silahlandıqlarını, sakit təbiətli türklərin isə əsgər aparılmadıqlarını və bıçaqdan başqa silahlarının olmadığını qeyd edir. 1905–1906-cı illər qırğınlarından bəhs edən Apresyan yazır: "Ara bir qədər sakitləşən kimi, Şuşanı yenə gördüm. Şəhərin türk məhəlləsində daş-kəsək yığınlarından başqa bir şey qalmamışdı. Bütün evlər yandırılmış, onların sakinləri isə öldürülmüşdü. Eyni hal Xankəndidəki türk məhəlləsinin başına da gəlmişdi".

Tarixçi alim dedi ki, erməni müəlliflərinin sovet hakimiyyəti illərində çap edilən əsərlərində də 1905–1906-cı illərdə azərbaycanlı əhaliyə qarşı törədilən qırğınlar və cinayətlər barədə az da olsa yer verilmişdir:

– İrəvan qəzasının Aşağı Qəmərli kəndində anadan olan O.Harutyunyanın 1956-cı ildə İrəvanda rus dilində dərc olunmuş memuar səpkili "Xatirələr" kitabında şahidi olduğu Qəmərli bölgəsində daşnakların törətdikləri vəhşiliklərdən bəhs edir. O, daşnakların "mümkünsə daha çox öldür, talan et, heç kimə rəhm etmə" şüarı altında hərəkət etdiklərini yazır. O.Harutyunyan daşnakların erməni kəndlərini gəzərək əhalini silahlandırdıqlarını, dinc müsəlman əhalisini öldürdüklərini və kəndləri yandırdıqlarını yazır. O.Harutyunyan daşnakların silah sarıdan korluq çəkmədiklərini, canişin Voronsov-Daşkovun xüsusi icazəsi və erməni yepiskopları Xoren və Suren tərəfindən müvəkkil edilmiş şəxslər vasitəsilə təmin edildiklərini qeyd edir.

Erməni müəllifi daşnak silahlı dəstələrinin azərbaycanlı kəndlərini viran qoyduqdan sonra evlərinə qayıdıb dinc əhali üzərində qələbələrini şənlik mərasimi düzəldərək qeyd etdiklərini yazır. O.Harutyunyan yazır ki, bir dəfə Dəllər (Dalar) kəndində "milli qəhrəman" adını qazanan xmbapet (dəstə başçısı) Sumbat nahiyədə qalan azərbaycanlı kəndlərini onun dəstəsinin necə məhv etdiklərini böyük şövqlə nəql edirdi. Xmbapet deyirmiş ki, guya ki, bölgənin azərbaycanlıları ermənilər üçün təhlükə imiş.

O.Harutyunyan özündə cəsarət taparaq Sumbata rayonun azərbaycanlı əhalisinin ermənilər üçün heç də təhlükə törətmədiklərini söyləyəndə, quldurbaşı mauzerini çıxararaq onu güllələmək istədiyini, yalnız yoldaşlarından birinin Sumbatın qolundan yapışaraq ona imkan vermədiyini qeyd edir. O göstərir ki, ümumiyyətlə, ermənilər 1905-1906-cı illərdə Cənubi Qafqazın 15 qəzasında (İrəvan, Naxçıvan, Şərur-Dərələyəz, Eçmiədzin, Novo-Bəyazid, Aleksandropol, Sürməli, Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur, Gəncə, Qazax, Ərəş, Borçalı) və 8 şəhərində (Bakı, İrəvan, Naxçıvan, Gümrü, Şuşa, Gəncə, Qazax, Tiflis) kütləvi qırğınlar törətmişlər. 1905-1906-cı illər qırğınları zamanı Cənubi Qafqazda 286 kənd viran edilmiş və 8 şəhər dağıntılara məruz qalmışdır.

Nazim Mustafa sonda qeyd etdi ki, hesablamalara görə, Qafqazda dağıdılan kənd və şəhərlərin, təqribən, 200-ü azərbaycanlı yaşayış məntəqələrinin payına düşür:

– Həmin illərdə ermənilərin yeni ərazilər əldə etmək niyyətlərini silahlı müdaxilə yolu ilə həyata keçirmələri nəticəsində Cənubi Qafqazın 14 qəzasında 1,3 milyon nəfər bir-birinə düşmən kəsilərək iki cəbhəyə bölünmüşdü. 15 mindən artıq ailə (təqribən 100 min nəfər) ev-eşiyindən didərgin düşmüşdür. İnsan tələfatı 10 min nəfərdən artıq olmuşdur. Dağıntılara məruz qoyulan azərbaycanlı yaşayış məntəqələrinin bir qismi həmin vaxtdan etibarən xarabalığa çevrilmişdir.

***Söhbəti apardı:***
***Tahir AYDINOĞLU***
***XQ***

# "Naxçıvanda Qərbi Azərbaycan irsi" kitabının təqdimatı

**Naxçıvan şəhərində Qərbi Azərbaycan İcmasının muxtar respublika nümayəndəliyinin təşkilatçılığı ilə "Qərbi Azərbaycan İrsi" kitabının I cildinin yekun təqdimatı olub.**

Mərasimi giriş sözü ilə açan Naxçıvan Dövlət Universitetinin rektoru, Qərbi Azərbaycan İcmasının yerli nümayəndəsi Elbrus İsayev nəşrin tarixi yaddaşın qorunmasında və akademik araşdırmalara əsaslı töhfə verməsindəki əvəzsiz rolundan söz açıb. O bildirib ki, tarixən monoetnik dövlət yaratmağa cəhd edən ermənilərin xalqımıza qarşı törətdiyi soyqırım və deportasiya siyasəti nəticəsində əzəli Azərbaycan torpaqlarından zorla qovulmuş Qərbi azərbaycanlıların mövcud irsi mərhələli şəkildə məhv edilib. 2022-ci il dekabr ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq ölkəmizdə Qərbi Azərbaycana qayıdışla bağlı konsepsiya hazırlanıb və uğurla gerçəkləşdirilir.

Rektor qeyd edib ki, "Qərbi Azərbaycan İrsi" kitabının nəşri də bu konsepsiyanın tərkib hissəsi olmaqla tariximizi faktlarla, sənədlərlə, mədəniyyət nümunələri ilə sübut edən fundamental tədqiqat əsəridir. 5 hesabatdan ibarət olması nəzərdə tutulan kitabın I cildində 1991-ci ilə qədər Qərbi Azərbaycan ərazisində mövcud olmuş, hazırda isə yalnız xarabalıqları qalmış 700-dən çox azərbaycanlı qəbiristanlığının 201-nin əvvəlki və indiki vəziyyətindən bəhs edilir. Kitabın 3 dildə nəşri isə onun beynəlxalq əhəmiyyətini daha da artırır.






Elbrus İsayev sonda vurğulayıb ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində zəfər çalan, ərazi bütövlüyü və suverenliyi tam təmin edilən Azərbaycan xalqı birmənalı şəkildə inanır ki, Qərbi azərbaycanlılar da sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə öz tarixi Vətənlərinə qayıdacaqlar.

Naxçıvan MR Ədliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Hüseyn Səfərov nəşrin mahiyyəti və məqsədindən bəhs edib. Muxtar Respublikanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva qeyd edib ki, təqdimatı keçirilən kitab Qərbi azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini, insan hüquqları prinsiplərinin, beynəlxalq hüquq normalarının və konvensiyaların ciddi və sistematik pozulmasını bir daha faktlarla sübut edir. Muxtar Respublika Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov isə bildirib ki, Qərbi Azərbaycan irsinin yaşadılması və erməni cəlladlarının törətdiyi maddi və mənəvi ziyanın ödənilməsi tarixi zərurətdir.

Təqdimatda vurğulanıb ki, bu nəşrlər təkcə tarixi ədalətin bərpasına deyil, həm də gələcək nəsillərin yaddaşında real faktlara söykənərək Qərbi Azərbaycanın zəngin irsini yaşatmağa xidmət edir və belə tədqiqat əsələri beynəlxalq ictimaiyyətə geniş şəkildə təqdim olunmalıdır.

Sonda "Qərbi Azərbaycan İrsi" silsilə nəşri ilə bağlı hazırlanmış videoçarx nümayiş olunub.

Xatırladaq ki, bundan öncə Naxçıvan şəhərində, Ordubad, Kəngərli, Babək, Sədərək, Şərur, Şahbuz və Culfa rayonlarında kitabın geniş təqdimatları keçirilib.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

*Müslüm Maqomayev – 140*

# Üzeyir bəyin mənəvi qardaşı, məsləkdaşı və tale ortağı




**Dahi bəstəkarımız Üzeyir Hacıbəylinin yaxın dostu, həmkarı və məsləkdaşı, Azərbaycanın ilk peşəkar dirijoru Müslüm Maqomayev onunla eyni ildə – 1885-ci ildə, həm də eyni ayda və gündə – sentyabrın 18-də dünyaya göz açıb. Eyni ad-soyadlı nəvəsi, parlaq musiqi ulduzu – müğənni, SSRİ Xalq artisti Müslüm Maqomayevin də musiqi tariximizdə silinməz izləri qalıb. Sentyabrda Üzeyir bəylə bərabər, baba Müslüm Maqomayevin də 140 illik yubileyini qeyd edəcəyik.**

O, əslən Qax rayonunun İlisu kəndindəndir. Atası Məhəmməd gənc yaşlarında kənddə dəmirçilik edib və sonralar Şimali Qafqaza köçüb. Müslüm də o vaxt Qroznıda anadan olub.

1899-cu ildə Qori müəllimlər seminariyasına daxil olub. Elə buradan da onun Üzeyir bəylə dostluğu başlayıb. Təhsil illərində skripka və qaboyda əla çalan Müslüm Maqomayev tələbələrin iştirakı ilə simfonik və nəfəsli orkestrin konsertlərində baş ifaçısı olub, dəfələrlə dirijoru əvəz edib. Seminariyanı uğurla bitirdiyinə görə skripka və pul mükafatı alıb. Təyinatla Şimali Qafqaza işə göndərilib. İki il oradakı bir aulda nəğmə müəllimi və məktəb müdiri vəzifəsində çalışıb, şagird xoru təşkil edib.

Gənc Müslüm 1911-ci ildə Bakıya köçüb və burada şəhər kollecində işə başlayıb. Növbəti ildə Üzeyir bəy təhsil almaq üçün Moskvaya gedəndə onun əsərlərinin səhnə taleyi məhz Müslüm Maqomayevə tapşırılıb. Üzeyir bəyin "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şeyx Sənan" operalarına, eləcə də, "O, olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarına dirijorluq edib. Azərbaycan milli teatrının inkişafı, eləcə də, müəllimlik sahəsindəki pedaqoji fəaliyyəti Üzeyir Hacıbəyli ilə daha da yaxınlaşmasına vəsilə olub.

M.Maqomayev 1913-cü ildən "Şah İsmayıl", "Sevgi" və "Məhəbbət" operalarını yazmağa başlayıb. O, 1916-cı ildə özünün ilk səhnə əsəri olan "Şah İsmayıl"ı bitirib. Xalq əfsanəsinə əsaslanan bu operada bəstəkar milli folklor nümunələrindən bacarıqla istifadə edib, musiqi isə improvizasiya və muğam prinsiplərinə əsaslanıb.

Onun Üzeyir bəylə yaxınlığını sanki Allah daha sıx tellərlə qayım-qədim edib. Mədəniyyətimizin tərəqqisi yolunda birgə addımlayan bəstəkarlar təkcə sənətdə deyil, həyatda da bir növ ayrılmaz olublar. Belə ki, hər ikisi yaxın dostları Əli Terequlovun bacıları ilə ailə qurub: Üzeyir bəy Məleykə xanıma, Müslüm bəy isə Badigülcamal xanıma könül verib. M.Maqomayevin bu izdivacdan Cəmaləddin və Məhəmməd adında iki oğlu dünyaya gəlib. Cəmaləddin böyüyəndən sonra hökumətdə çalışıb, Məhəmməd (müğənni Müslüm Maqomayevin atası) rəssam olub, İkinci Dünya müharibəsi zamanı cəbhəyə yollanıb və 1945-ci ildə Berlin yaxınlığında qəhrəmancasına həlak olub.

Bəstəkarın güclü təşkilatçılıq bacarığı və məsuliyyət hissi onu tutduğu vəzifələrdə daim ucaldıb. Azərbaycan SSR Təhsil İşçiləri Birliyinin sədri, Xalq Təhsili Komissarlığının incəsənət şöbəsinin müdiri, Azərbaycan Dram Teatrının bədii rəhbəri, Dövlət Opera və Balet Teatrının baş dirijoru vəzifəsində çalışıb. Daha 3 il Azərbaycan Radio Komitəsində musiqi şöbəsinin rəhbəri vəzifəsində işləyib. Amma sənət onun üçün daha öndə olub. Bəstəkar 1920–1930-cu illərdə "Azərbaycan incəsənəti", "Raport veririk" kinofilmlərinə, Cəlil Məmmədquluzadənin "Ölülər", Cəfər Cabbarlının "1905-ci ildə" dram tamaşalarına və digər əsərlərə musiqi bəstələyib. O, simfonik orkestr üçün milli koloritli rəqs musiqiləri, həmçinin, mahnılar yazıb. O, vokal musiqisi sahəsində də öz fəaliyyətini davam etdirib.

1932-ci ildə "Koroğlu" dastanı hekayəsinə əsasən opera yazmağa başlayıb, lakin Ü.Hacıbəylinin eyni mövzuda əsər yazdığını öyrənincə, dostunun daha yaxşı bir opera yazacağını düşünərək, öz qaralamalarını cırıb atıb.

Üzeyir bəy Müslüm Maqomayevin Azərbaycan incəsənətində göstərdiyi fədakarlıqlardan danışarkən qeyd edirdi: "Müslüm Maqomayev Azərbaycan musiqi sənəti yolunda qarşıya çıxan hər cür maneələri amansızcasına qırıb atan, ruhən və arzularına görə xalq sənətkarı, əsl realist, cəsarətli novator idi".

Müslüm Maqomayev yaradıcılığının ən yüksək zirvəsini onun Avropa stilində yazdığı "Nərgiz" operası təşkil edir. Bəstəkar bu opera üzərində 3 il işləyib. "Nərgiz" operası Azərbaycan musiqisinin inkişafı tarixində mühüm yer tutub. Byuna görə müəllif "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb. 15-ə yaxın simfonik əsərin, o cümlədən 2 opera, marşların və bir neçə rapsodyanın, azərbaycanlı şairlərin şeirlərinə əsaslanan bir çox vokal əsərlərin müəllifidir. Müslüm Maqomayevin bitməmiş əsərlərindən üçü məlumdur: "Sevgi" operası, "Dəli Muxtar" baleti və "Xoruz bəy" adlı musiqili komediya. Bundan əlavə, o teatr tərtibatının ("Ölülər", "1905-ci ildə") və neçə-neçə filmə dair musiqi müşayiətinin müəllifidir.

Müslüm Maqomayev 1937-ci il iyulun 28-də uzun sürən xəstəlikdən sonra Nalçikdə vəfat edib. Bakıda Fəxri xiyabanda dəfn olunub. Azərbaycan Dövlət Akademik Filarmoniyası və Bakıda İçərişəhərin küçələrindən biri Müslüm Maqomayevin adını daşıyır. Bəstəkarın paytaxtda yaşadığı Nizami küçəsindəki 41 nömrəli evin divarında xatirə lövhəsi var.

Sonda bu anım yazısını böyük bəstəkar Fikrət Əmirovun fikirləri ilə tamamlamaq yerinə düşər: "Üzeyir Hacıbəyli və Müslüm Maqomayevin musiqi rəşadətinin və insani hünərinin əzəməti, onların fəaliyyətinin Azərbaycan incəsənəti üçün əhəmiyyəti gözümüz qarşısında canlanır. Qəlbimiz Azərbaycan xalqının bu iki oğluna məhəbbət və minnətdarlıq hissi ilə coşur. Onlar Azərbaycan xalqının mədəniyyəti tarixinə ən parlaq səhifələrindən birini yazmışlar. Bu səhifə keçmişin epizodu kimi deyil, müasir dövrün canlı mənzərəsi kimi indiyədək çox böyük maraq oyadır".

***Əli NƏCƏFXANLI***
***XQ***

# Böyük Qayıdışın fotosalnaməsi



**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Azərbaycan Fotoqrafları Birliyi ilə keçirdiyi "Zəfərin 5-ci ili: Böyük Qayıdışın addımları" adlı beynəlxalq fotomüsabiqəyə yekun vurulub. Bu ilin aprelində elan edilən, 44 günlük Vətən müharibəsində və ondan sonrakı antiterror əməliyyatında rəşadətli Ordumuzun qazandığı Zəfərin nəticələrinə həsr olunan müsabiqəyə həvəskar və peşəkar fotoqraflar 400-dən çox fotoşəkil təqdim ediblər.**

Dövlət Komitəsinin sədri Rövşən Rzayev diqqətə çatdırıb ki, sərgidəki fotoşəkillər həm tarixi yaddaş, həm də gələcək nəsillər üçün vizual sənəd rolunu oynayır. Milli Məclisin sədr müavini Rafael Hüseynov və deputat Ceyhun Məmmədov torpaqlarımızın işğaldan azad olunmasını, ölkəmizin ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpası i ilə nəticələnən möhtəşəm Zəfərin qazanılmasını Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqımız və müstəqil dövlətçiliyimiz qarşısında müstəsna xidməti kimi dəyərləndiriblər. Sonra çıxış edənlər sərgilənən fotoşəkillər haqqında təəssüratlarını bölüşüblər.

İştirakçılardan 3 nəfər qalibə diplom və pul mükafatları, 20 nəfərə həvəsləndirici mükafatlar, digər iştirakçılara isə təşəkkürnamələr təqdim edilib. Müsabiqədə I yerə İlham Mustafayev, II yerə Rəsul Rəhimov, III yerə isə Alp Ər-Tunqa Cabbarlı layiq görülüblər.

***XQ***

# Qəbələ festivalının izləyicilərinə növbəti hədiyyə



**XIV Qəbələ Beynəlxalq Musiqi Festivalının sonuncu günündə - iyulun 29-da Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində musiqisevərlərə növbəti kamera konserti təqdim olunub. Kamera musiqisi axşamında Litvadan gəlmiş "Ciurlionis" kvarteti və Azərbaycanın Xalq artistləri - pianoçular Fərhad Bədəlbəyli və Murad Adıgözəlzadə maraqlı konsert proqramı ilə çıxış ediblər.**

Konsertdən əvvəl Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Zəhra Quliyeva çıxış edərək Mikaloyus Konstantinas Ciurlionisin yaradıcılığı barədə məlumat verib. Bildirilib ki, Ciurlionis Litva xalqının görkəmli mədəniyyət xadimi, Litva professional musiqisinin banisi, çox istedadlı şair və rəssam olub. O, orqan, kamera musiqisi və orkestr üçün əsərlər yazıb, Litva xalq mahnılarından, rəvayətlərindən bəhrələnərək özünün sanki fantaziya və reallıq arasında olan əsərlərini bəstələyib.

Kamera musiqisi axşamında Fərhad Bədəlbəyli və Murad Adıgözəlzadəni "Ciurlionis" kvartetinin üzvləri Yonas Tankeviçius (violin), Darius Diksaitis (violin), Yelena Daunyte (cello) və Gediminas Daçinskas (viola) müşayiət ediblər.

Konsertdə M.Ciurlionisin "Simli kvarteti do minor" ("Allegro moderato", "Andante", "Menuetto"), Y.Bramsın "Piano kvinteti fa minor, op.34", R.Şumanın "Piano kvinteti mi bemol major, op.44" əsərləri ifa olunub.

XVIII əsrin məşhur italiyalı ustalarının hazırladıqları unikal musiqi alətlərində ifa edən Litvanın "Ciurlionis" kvartetinin virtuoz təqdimatı festivalın öz izləyicilərinə növbəti hədiyyəsi olub.

# Şəhid jurnalistlərin ekran obrazı



**Torpaqlarımızın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə xidməti borcunu yerinə yetirərkən qəhrəmancasına həlak olan mətbuat nümayəndələrinin – şəhid jurnalistlərin xatirəsinə həsr olunmuş film Mərkəzi Elmi Kitabxananın Qarabağ müharibəsi qəhrəmanları fondunda ictimaiyyətə təqdim olunub.**

Mahmud Kaşqari adına Beynəlxalq Fondun təşəbbüsü ilə reallaşmış ekran əsərinin nümayişindən əvvəl fondun prezidenti, Milli Məclisin deputatı Cavanşir Feyziyev, BDU-nun Jurnalistika fakültəsinin professoru Sevil Həsənova, Azərbaycan Televiziyasının şöbə rəhbəri, tarix üzrə fəlsəfə doktoru Mahir Qəribov xidməti vəzifələrini yerinə yetirərkən şəhid olan jurnalistlərin mediadan döyüş cəbhəsinə uzanan ömür yolundan söz açıb, onların xatirəsinə dərin ehtiramlarını ifadə ediblər.

Diqqətə çatdırılıb ki, film Mahmud Kaşqari adına Beynəlxalq Fondun "Cəbhə gündəlikləri" memuarı və silsilə portret filmləri layihəsi əsasında ərsəyə gəlib. Məqsəd gənc nəslin vətənpərvər ruhda tərbiyə olunması, gənclərə milli-mənəvi dəyərlərimizin təbliği, Vətən qarşısında peşə məsuliyyətinin və vətəndaşlıq borcunun müqəddəsliyini aşılamaq, Vətənə sevginin ideal nümunəsi kimi şəhidlərin örnək həyatını işıqlandırmaq, kitab səhifələrində, film kadrlarında əbədiləşdirməkdir.

AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun professoru Asif Rüstəmli, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru Xədicə Heydərova və başqaları mənəvi dəyəri böyük olan bu işləri ərsəyə gətirənlərə minnətdarlıqlarını bildiriblər.

Sonra ekran əsəri təqdim olunub. Filmdə Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdıran Milli qəhrəmanlar Çingiz Mustafayevin, Salatın Əsgərovanın, döyüşlərdə həm qələmi, həm də silahı ilə vuruşan Kazımağa Kərimovun, Qarakənd faciəsində şəhid olan Alı Mustafayev, Osman Mirzəyev və Fəxrəddin Şahbazovun, 44 günlük Vətən müharibəsində şəhid olan Azad Azərbaycan Televiziyasının əməkdaşı Davud Qurbanovun, işğaldan azad olan kənd və şəhərlərimizdə erməni vandalizmini sənədləşdirən AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimovun və AzTV-nin əməkdaşı Sirac Abışovun şəxsində şəhidlərimizin ömür yolu işıqlandırılıb.

***XQ***

# Adriatik sahillərində Azərbaycan sərgisi




**İtaliyanın Kassin şəhərində "Sən1Sən" Beyin Mərkəzi, Azərbaycan Fotoqrafları Birliyi (AFB) və "F37 Union" müstəqil fotoqrafiya platformasının birgə sərgisi təşkil olunub.**

"Giovani Emozioni" və "Vətən mən" sərgiləri XVII əsrə aid abidə kimi qorunan "Palazzo Mandrilli" Qalereyasında keçirilib. Sərgidə 40-dan çox rəssam və fotoqrafın əsərləri nümayiş etdirilib.

"Giovani Emozioni" – gənc Azərbaycanlı rəssamların sərgisi Azərbaycan təsviri sənətinin klassik köklərindən çıxıb müasir ifadə vasitələri ilə qlobal dialoqa qoşulduğunu nümayiş etdirir. Əsərlər rəssamların şəxsi dünyagörüşü, emosional təcrübəsi və estetik axtarışlarının sənətə çevrilmiş nümunəsidir.



Digər sərgi – "Vətən mən" isə foto əsərlərindən ibarətdir. İnsanın vətənə mənəvi bağlılığını, şəxsiyyətin coğrafi və mədəni köklərlə münasibətini ehtiva edir. Burada Azərbaycan təbiət mənzərələrində, şəhər küçələrində, tarixi abidələrdə, insan simalarında yaddaqalan detallarda təqdim olunur. Hər kadr həm şəxsi baxış, həm də kollektiv yaddaşın vizual parçasıdır.

Sərgi ilə Kassin şəhərinin meri, şəhər sakinləri və turistlər tanış olublar. Qeyd edək ki, "Sən1Sən" Beyin Mərkəzi mütəmadi olaraq ölkəmizin mədəniyyətini İtaliyada müxtəlif formatlı tədbirlərdə sərgiləyir. Bu ilin may ayında mərkəz məşhur ThinkTank Palazzo-nun əsas salonunda Beynəlxalq İncəsənət Qalereyasını da uğurla açıb.

***XQ***

# Türkiyə–Qazaxıstan münasibətləri: qardaşlıqdan strateji tərəfdaşlığa

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Türkiyəyə səfəri iki ölkə arasında ikitərəfli münasibətlərin inkişafında yeni mərhələnin əsasını qoydu. Bu il diplomatik əlaqələrin qurulmasının 33-cü ildönümünü qeyd edən Qazaxıstan və Türkiyə münasibətləri əməkdaşlığın dərinləşdirilməsi istiqamətində yeni səhifə açır. Prezident Tokayev Prezident Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Türkiyəyə rəsmi səfər edib və Ankaradakı Prezident Kompleksində keçirilən görüşdə strateji tərəfdaşlığın gələcək inkişaf perspektivləri müzakirə olunub.**



Görüş çərçivəsində Türkiyə–Qazaxıstan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası keçirilib. Tərəflər Orta Dəhlizin inkişafı, enerji, müdafiə, ticarət, kənd təsərrüfatı, media və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsi ilə bağlı yeni hədəflər müəyyənləşdiriblər. Görüşlər zamanı iki ölkə arasında münasibətlərin müqavilə-hüquq bazasını gücləndirən çoxsaylı sənədlər imzalanıb.

Türkiyə və Qazaxıstan arasındakı münasibətlər dərin tarixi və mədəni bağlara əsaslanır. 1991-ci ildə müstəqillik qazandıqdan sonra Qazaxıstanı tanıyan ilk ölkə Türkiyə olub. Diplomatik münasibətlər 1992-ci il martın 2-də qurulub, həmin ildən etibarən qarşılıqlı səfirliklər və konsulluqlar fəaliyyətə başlayıb. Hazırda Türkiyənin Astanada səfirliyi, Almatı, Aktau və Türküstanda baş konsulluqları, Çimkənddə isə fəxri konsulluğu fəaliyyət göstərir. Qazaxıstanın isə Ankarada səfirliyi, İstanbul, Antalya, İzmir şəhərlərində baş konsulluqları, eləcə də Denizli, Alanya, Bursa, Bitlis, Hatay, Konya və Mersində fəxri konsulluqları mövcuddur.

2009-cu ildə imzalanmış “Strateji Tərəfdaşlıq Sazişi” ilə iki ölkə arasında münasibətlər strateji səviyyəyə yüksəlib, 2022-ci ildə isə bu əlaqələr “Genişləndirilmiş Strateji Tərəfdaşlıq” səviyyəsinə çatdırılıb. Müstəqillik qazandıqdan sonra Qazaxıstan prezidentləri Türkiyəyə 20-dən çox rəsmi səfər ediblər. Prezident Tokayev 2019-cu ildən bu yana Prezident Ərdoğanla 14 ikitərəfli görüş keçirib. Qazaxıstan və Türkiyə Türk Dövlətləri Təşkilatının qurucu üzvləri olaraq təşkilatın beynəlxalq nüfuzunun gücləndirilməsi istiqamətində əməkdaşlıq edir, TÜRKPA, Türk Akademiyası, Türk Mədəniyyəti Təşkilatı və TÜRKSOY kimi qurumlarla inteqrasiyanı fəal şəkildə irəli aparırlar.

İki ölkə həmçinin Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Asiyada Əməkdaşlıq və Etimad Tədbirləri üzrə Müşavirə və İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq platformalarda da həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə əməkdaşlıq edir. Qlobal geosiyasi və iqtisadi qeyri-sabitliyə baxmayaraq, iki ölkə arasında ticarət dövriyyəsi artmaqda davam edir. 2024-cü ildə ikitərəfli ticarət dövriyyəsi 5 milyard dolları ötüb. Yalnız yanvar–may aylarında bu göstərici 1,9 milyard dollar təşkil edib.

Türkiyə, Qazaxıstanın ən iri xarici sərmayəçilərindən biri kimi ön plana çıxır. 2004–2025-ci illərdə Türkiyənin Qazaxıstana yatırdığı sərmayələrin ümumi məbləği 5,2 milyard dollar təşkil edib. Hazırda ölkədə 3 538 türk şirkəti fəaliyyət göstərir və iki ölkə arasında 78 ortaq layihə reallaşdırılıb.

İkitərəfli əlaqələr çərçivəsində təhsil və turizm sahəsində də sıx əməkdaşlıq qurulub. Hazırda 12 mindən artıq qazax tələbə Türkiyədə ali təhsil alır. 2024–2025-ci tədris ili üçün əlavə olaraq 300 qazax tələbə “Türkiyə təqaüdü” proqramı çərçivəsində qəbul olunub. Turizm sahəsində də intensiv əlaqələr mövcuddur. 2023-cü ildə 863 min qazaxıstanlı turist Türkiyəyə səfər edib, eyni dövrdə Türkiyədən Qazaxıstana gələn turistlərin sayı 130 minə yaxın olub. Bu əlaqələrin daha da inkişafı üçün Qazaxıstan hökuməti Türkiyə vətəndaşlarının ölkədə vizasız qalma müddətini 30 gündən 90 günə qədər artırıb.

Qazaxıstan və Türkiyə arasında qurulan münasibətlər təkcə ortaq tarixə deyil, həm də gələcəyə yönəlmiş strateji baxışa əsaslanır. Prezident Tokayevin bu səfəri iki ölkə arasında qarşılıqlı etimada və ortaq maraqlara dayanan əməkdaşlığın yeni mərhələsinin başlanğıcını qoyur.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

*Təbiət sevgiyə çağırır bizi*

# Yaralı Qarabağ ağrı görməsin!

## *Təəssüf ki, arzuedilən turist axını arzuolunmaz izlər də qoyur...*

**Biz Qarabağın, Şərqi Zəngəzurun erməni işğalından azad edilməsini, həsrətilə yaşadığımız bu müqəddəs torpaqlara qovuşmağımızı illər boyu ən müqəddəs arzu kimi ürəyimizdə yaşatmışıq. Böyük sərkərdə, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun düşmən üzərində qazandığı şanlı qələbələr sayəsində bu gün həsrət bitib, vusal dəmi yetişib.**







Yurd yerlərimiz yenidən qurulur, şəhərlər, kəndlər salınır, keçmiş məcburi köçkünlərin mərhələli şəkildə ata-baba ocaqlarına qayıdışı nəticəsində vətənimizin bu dilbər güşələrində həyat canlanır. Başdan-başa genişmiqyaslı tikinti meydançasını andıran Qarabağa indi təkcə vaxtilə burada yaşamış insanların deyil, ölkəmizin dörd bir yanından işləmək, təhsil almaq, ən çox da Tanrının bu yerlərə bəxş etdiyi təbiət gözəlliklərini görmək üçün gələnlərin ardı-arası kəsilmir.

Xocalının, Xankəndinin ruhumuza hüzur verən parklarında, Şuşanın şanına şeirlər yazılmış, nəğmələr bəstələnmiş Cıdır düzündə, İsa bulağında, Turşsuyunda, Həkərinin sahilində, Laçının, Kəlbəcərin can dərmanı, buz kimi çeşmələrində, minbir güllərlə, çiçəklərlə bəzənmiş yaylaqlarında qələbəliyi görəndə sevinməmək, qürurlanmamaq mümkün deyil!

Ancaq təəssüf ki, elə həmin qələbəliyin içində uzun həsrətdən sonra qovuşduğumuz vətən torpaqlarına sevgisi şübhə doğuran, bilərəkdən və ya bilməyərəkdən təbiətə zərər verən, meşələri, yaşıllıqları, bulaqların ətrafını zibilləyənlər də var.

Paradoksa fikir verin, kimsə “oxxay!” çəkərək hansısa bulağın suyundan içir, yanında həmin anı xatirəyə çevirmək üçün “Allah bizə bu günləri yaşadan şəhidlərimizə rəhmət eləsin”lə başlayan video çəkir, bulağın başında yeyib-içir, sonra da zibillərini elə ora tullayıb gedir. Cıdır düzünün yaxınlığındakı ağacların altında, Turşsuda, Laçın-Şuşa yolundakı Şəhidlər bulağının ətrafında və sadalamadığımız daha neçə-neçə yerlərdə belə hallarla rastlaşmaq ürək ağrıdır.

Baxmayaraq ki, insanların axın etdiyi həmin ərazilərin əksəriyyətində aidiyyəti qurumlar tərəfindən zibil qabları qoyulub, mütəmadi monitorinqlər keçirilir, maarifləndirici lövhələr var, ancaq hər ağacın, hər bulağın yanında polis əməkdaşının növbə çəkməsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) əməkdaşının dayanması mümkün deyil axı.

Köhnə dövr marşrut avtobuslarında “ən yaxşı nəzarət sənin vicdanındır” yazılan kiçik lövhələr vardı. Həqiqətən də, Qarabağda, Şərqi Zəngəzurda təbiətimizə münasibət də vicdan, qeyrət, vətənpərvərlik məsələsidir. Hələ nə yaxşı ki, başqalarının tökdüklərini yığan, bu yerləri təmiz saxlamağı vətəndaşlıq nümunəsinə çevirən həssas, vicdanlı insanlarımız da kifayət qədər çoxdur.

Mövzunun aktuallığını bugünlərdə işğaldan azad olunmuş rayonlarımızın əksəriyyətində baş vermiş yanğın hadisələri də təsdiqləyir. Əlbəttə, həmin yanğınların yaranma səbəbləri haqqında aidiyyəti qurumlar tərəfindən araşdırma aparılır, günahkarlar tapılaraq qanunamüvafiq cəzalandırılır və cəzalandırılacaq.

Ancaq hər bir halda baş verən hadisələrin mahiyyətində bəzi üzdəniraqların laqeydliyi, səhlənkarlığı və savadsızlığı dayanır. **ETSN yanında Meşələrin İnkişafı Xidmətinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını əhatə edən 12 saylı Regional Meşə Təsərrüfatı Mərkəzinin direktoru Söhrab Abbasov da “Xalq qəzeti”nə** açıqlamasında mövzu ilə bağlı təəssüf və hiddətlə bəhs etdi. Uzun illər bu sahədə diqqətçəkən fəaliyyəti ilə seçilən S.Abbasov bildirdi ki, Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğından Mühafizə Xidmətinin və rəhbərlik etdiyi qurumun əməkdaşlarının fədakarlıqları sayəsində baş verən yanğınlar vaxtında söndürülüb, alovların meşələrə keçməsinin qarşısı alınıb, meşə fondu torpaqlarını mühafizə etmək mümkün olub.

Bütün bu səylərə rəğmən yenə də hektarlarla ot örtüyü, əkin və otlaq yerləri, kolluq ərazilər yanaraq külə dönüb, təbii landşafta ciddi zərər dəyib. Yanğınsöndürmə əməliyyatlarını çətinləşdirən həm də həmin yanğınların minalardan təmizlənməmiş ərazilərə keçməsi olub. Nəticədə, bir neçə partlayışın baş verməsi FHN əməkdaşlarının birbaşa fiziki müdaxiləsini çətinləşdirib, buna baxmayaraq, helikopterlərin də köməyi ilə yanğınlar nəzarət altına alınıb və tamamilə söndürülüb.

Təbiət sevgisi insanın içində olmalıdır. Bu yerlərə istirahətə, gəzməyə gələn hər kəs başa düşməlidir ki, kabab bişirmək üçün yandırdığı ocağı söndürməlidir. Başa düşməlidir ki, zibili yaxınlıqda olan zibil qutusuna deyil, oturduğu yerə atmaq, o tərtəmiz gözəllikləri zibilləmək həm hüquqi, həm də insani baxımdan cinayətdir.

S.Abbasov qəzetimiz vasitəsilə bir daha vətəndaşlara müraciət edərək onları təbiətimizi, meşələrimizi, yaşıllıqlarımızı qorumağa, ətrafı zibilləməməyə, yanğın təhlükəsizliyi ilə bağlı təlimatlara əməl etməyə çağırdı.

Biz də “Xalq qəzeti” olaraq bu çağırışa qoşuluruq: Vətən sevgimizi torpaqlarımızı işğaldan azad etmək məqamında birliyimizlə göstərdiyimiz kimi, bu gün onu qorumaqla da göstərək. Axı bu əsrarəngiz təbiət gözəllikləri ana təbiətin, babalarımızın bizə əmanətdir. Əmanətə xəyanət etməyək!

***Mahir RƏSULOĞLU,***
***“XQ”nin Qarabağ müxbiri,***

**Xocalı**

# YAP-ın Gəncə tarixçəsi

**YAP Gəncə şəhər təşkilatının inzibati binasında keçirilən toplantı partiyanın şərəfli yoluna həsr olunub. Məclisdə YAP İdarə Heyətinin üzvü Bayram Aslanov, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, Azərbaycan Texnologiya Universitetinin rektoru Yaşar Ömərov, professor İbrahim Cəfərov və digər qonaqlar iştirak ediblər.**



Əvvəlcə iştirakçılar ulu öndər Heydər Əliyevin büstünü ziyarət edib, ehtiramla önünə gül düzüblər. Azərbaycan Dövlət Himni səsləndirildikdən sonra, Ümummili liderin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Ardınca partiyanın yaranma və inkişaf yolunu əks etdirən videoçarx nümayiş olunub.

Bayram Aslanov çıxışında YAP-ın mübariz keçmişi, güclü bu günü və ümidli gələcəyindən danışaraq, təşkilatın Gəncədə 42 mindən çox üzvü birləşdirdiyini bildirib. Adil Tağıyev isə Gəncə Şəhər İcra Hakimiyyəti adından iştirakçıları salamlayaraq, Azərbaycanın gələcəyə inamla addımladığını vurğulayıb.

Professor İbrahim Cəfərov, fəal gənc Fəridə Allahverdiyeva və digər natiqlər YAP-ın dövlətçilik və vətənpərvərlik yolundakı rolunu yüksək dəyərləndiriblər.

Sonda fəal partiya üzvlərinə fəxri fərmanlar, yeni üzvlərə isə vəsiqələr təqdim olunub. Görüş YAP-ın himni ilə başa çatıb.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Ayaqlarla qazanılan sağlamlıq

## 7, yoxsa 10 min addım?

**Piyada gəzməyin insan sağlamlığına müsbət təsiri barədə çox danışılıb. Həmişə eşitmişik ki, iti addımlarla yeriməк ürək xəstəlikləri, ikinci tip diabet və digər sağlamlıq problemləri zamanı köməyə çatır. Amma lazımi faydanı əldə etmək üçün nə qədər gəzmək məsələsi uzun zaman istər sadə insanlar, istərsə də tibb mütəxəssisləri qarşısında sual olaraq qalıb. Bu suala indinin özündə də cavab axtarılmaqda və müəyyən nəticələrə gəlinməkdədir. Yazımızda söhbət bu barədə olacaq: insan sağlam qalmaq və müəyyən xəstəliklərdən qorunmaq üçün gün ərzində nə qədər piyada gəzməlidir?**

Bu günlərdə bununla bağlı yeni bir araşdırmanın nəticələri açıqlanıb. Bildirilir ki, indiyədək sağlam həyat tərzi üçün həkimlər insanlara ideal olaraq hər gün 10 min addım gəzməyi məsləhət görüblər. Amma yeni araşdırmaların nəticələri göstərir ki, ən optimal rəqəm gündəlik təxminən 7000 addımdır. Bu göstəriciyə çatmaq demensiya, ürək xəstəliyi, depressiya, 2-ci tip diabet və hətta xərçəng kimi xəstəliklərin riskini əhəmiyyətli dərəcədə azaldır.

“The Lancet Public Health” nəşrində dərc olunmuş araşdırmaya görə, gündə bu qədər gəzmək xərçəng riskinin 6 faiz, demensiya riskinin 38 faiz azalmasına qədər təsir göstərir. Gündə 7000 addım atmaq həm də yaşlı insanlar üçün ölümcül ola bilən yıxılma riskinin 28 faiz azalması ilə əlaqələndirilir.

Tədqiqatda iştirak etməmiş London Brunel Universitetinin oturaq həyat tərzi və sağlamlıq üzrə mütəxəssisi doktor Daniel Beyli bu məsələ ilə bağlı verdiyi açıqlamada bildirib ki, “gündə 10 min addımın optimal sağlamlıq hədəfi olması mifdir”. Budur, beynəlxalq tədqiqat qrupu tərəfindən yeriməyin bir sıra sağlamlıq problemləri riskini necə azalda biləcəyini araşdıran ilk tədqiqat ortadadır. Yeni tədqiqat nəticəsində alınmış göstəricilər gəzməyin ürək sağlamlığına faydaları haqqında bilən hər kəs üçün sürpriz olmayacaq. Sürətli yerimək ürək döyüntüsünü artırır, qan dövranını yaxşılaşdırır, qan təzyiqini aşağı salır və insanların arıqlamasına kömək edir.

Alimlər 31 tədqiqat üzrə 160 mindən çox insanın məlumatlarını təhlil edərək müəyyənləşdiriblər ki, hətta az sayda - gündə təxminən 4000 addım atan insanların sağlamlıq göstəriciləri gündə 2000 addım atan oturaq insanlardan daha yaxşı olur. Onların sözlərinə görə, insan nə qədər çox gəzirsə, ürək xəstəliyi riski bir o qədər az olur. Digər xəstəliklər isə araşdırdırmalarla sübut olunub



ki, gündə təxminən 7000 addımdan sonra yox olub. Orta yaşlı insan isə bu halda 5 il çox yaşaya bilib.

Tədqiqatçılar bildiriblər ki, çox aktiv olmayan insanlar da rahat ola bilərlər, çünki gündəlik 7000 addım qeyri-rəsmi 10.000 addımdan daha realdır. London Kral Kollecinin insan və tətbiqi fiziologiya üzrə professoru, tədqiqatda iştirak etməmiş Stiven Harric addımların sayılmasının insanların rifahı üçün vacib olan fiziki fəaliyyətin intensivliyinə təsir etmədiyini deyib. Onun fikrincə, yaşlı insanlar sürətli yerimə və ya velosiped sürmə kimi vərdişlərə yiyələnməlidirlər. Onlara həftədə ən azı 150 dəqiqə mülayim məşq və ya həftədə bir dəfə 75 dəqiqə güclü idman etmək tövsiyə olunur.

Harric tədqiqatın nəticələri ilə bağlı deyib: “Bu tədqiqat fiziki fəaliyyətin sağlamlıq üçün həyati əhəmiyyət kəsb etdiyi və insanları daha aktiv olmağa təşviq edən hər şeyin həm fiziki, həm də ruhi sağlamlıq üçün faydalı olduğu barədə biliklərimizi zənginləşdirir”.

Bizə qalır bu tövsiyələrə əməl etmək...

***P.ƏMİRCANOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 156 (30850) 30 iyul 2025-ci il, çərşənbə

## İDMAN

### MOK gənc olimpiyaçıları dəyərləndirdi



**“Azərbaycan komandası üçün Olimpiya Festivalında qazanılan nəticəni qənaətbəxş hesab edirik. Amma düşünürük ki, nəticə bundan da yaxşı ola bilərdi”.**

Bu sözləri mətbuata açıqlamasında Milli Olimpiya Komitəsinin (MOK) İdman idarəsinin müdiri Həsənağa Rzayev Şimali Makedoniyanın Skopye, Kumanov və Xorvatiyanın Osiyek şəhərlərində keçirilən XVIII Avropa Gənclər Olimpiya Festivalını (EYOF) 10 (3 qızıl, 3 gümüş, 4 bürünc) medalla başa vuran Azərbaycan idmançılarının çıxışlarını dəyərləndirərkən deyib.

Qeyd edək ki, “Skopye-2025”də Avropanın 50 ölkəsindən 14-18 yaşarası 4 mindən çox idmançı 15 növ üzrə mübarizə aparıb. Festivalda Azərbaycan komandası ümumilikdə 10 idman növündə 52 (28 oğlan, 24 qız) idmançı ilə təmsil olunub.

### Azərbaycan atıcılarının Fransa uğuru

**Fransanın Şatoru şəhərində keçirilən Avropa Atıcılıq Çempionatında Azərbaycan idmançıları uğurlu nəticə əldə ediblər.**



Azərbaycan Atıcılıq Federasiyasından verilən məlumata görə, dairəvi (skeet) stend qarışıq duet komandası kateqoriyasında mübarizə aparan Niyaz Ağazadə və Riqina Meftaxetdinova cütlüyü bürünc medal qazanıb.

Medal qarşılaşmasında təmsilçilərimiz Stefan Nilsson Şoen və Viktoria Larssondan ibarət İsveç duetinə qarşı üstün oyun nümayiş etdirərək inamlı qələbə ilə 3-cü yeri təmin ediblər.

### Amerikalı basketbolçu Azərbaycanda qalacaq




**Yeni mövsümdə Azərbaycanı basketbol üzrə Avropa Kubokunda təmsil edəcək “Abşeron Lions” oyunçusu Obri Makelpin ilə müqavilənin müddətini uzadıb. Bu barədə mətbuata 36 yaşlı amerikalı basketbolçu özü məlumat verib. O, Bakı təmsilçisi ilə 1 illik yeni müqavilə imzaladığını söyləyib.**

Qeyd edək ki, “Abşeron Lions” ilk təsnifat mərhələsində Kiprin “Anortosis” klubunu məğlub edəcəyi halda H qrupunda “Kasademont” (Saraqosa, İspaniya), “Falko” (Macarıstan) və “Bakken Bears” (Danimarka) komandaları ilə mübarizə aparacaq. Avropa Kubokunda təsnifat mərhələsinin oyunları 24 sentyabr və 1 oktyabrda təşkil olunacaq.

***M.HACIXANLI***
***XQ***

*✓ 2023-cü ildə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası tərəfindən Əzizov İspar İlqar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.*

**Belə ola həmişə**

# “Qarabağ”dan Dublin qələbəsini Bakıda təkrarlamağı gözləyirik



**Başlanğıc arzuladığımızdan da qat-qat yaxşı oldu. Ağdam komandası onunla görüşədək avrokuboklarda öz meydanında keçirdiyi 11 oyunda məğlubiyyət acısı dadmayan “Şelburn”a böyük hesabla qalib gəlib, Dublindən Bakıya qəhrəman kimi, ya da 3 nida işarəsinə layiq 3 cavabsız qolla qayıtdı.**

İndi adama elə gəlir ki, Azərbaycan çempionu UEFA Çempionlar Liqası turnirinin 3-cü təsnifat mərhələsinə yüksəlmək vəzifəsini böyük ölçüdə həll etmişdir. Hər halda, 2-ci mərhələnin elə 1-ci raundunda Leandro Andradenin erkən, Aleksey Kaşukla Nəriman Axundzadənin son 10 dəqiqə qolları məhz belə düşünməyə ciddi əsas verir.

Bu gün isə 2-ci raundda döyüşmək, uzaq İrlandiya adasında uğurla başladığımız işi öz meydanımızda sona çatdırmaq lazımdır. Başda Andrea Kolombo olmaqla italiyalı hakimlər briqadası saat 20-də matçda ədaləti qorumaq üçün iş başına keçib, UEFA-nın etimadını doğrultmağa çalışacaq.

Yeri gəlmişkən, əgər köhnə vaxtlarda və ya o uzaq illərdə, “Neftçi”nin oyunlarına bəzən ac-susuz qaça-qaça getdiyimiz günlərdə stadionumuzun tribunaları 37 mindən bir qədər çox tamaşaçı qəbul edirdisə, indi yeniləşən və müasirləşən “Tofiq Bəhramov”un tribunaları 31 min 200 tamaşaçıya xidmət edir. Amma bu da kiçik göstərici deyil. Güman etmək olar ki, axşam tribunalarda böyük canlanma olacaq və bütün stadion “Qarabağ”ı gurultulu alqışlarla qarşılayacaq.

Futbol ictimaiyyətimizə məlum olduğu kimi, Ağdam komandası 3-cü təsnifat mərhələsinə “bileti” rəsmləşdirəcəyi təqdirdə 2-ci mərhələdə Şimali Makedoniyanın “Şkendiya” və Rumıniyanın FCSB komandaları arasında keçirilən görüşlərin qalibi ilə qarşılaşacaq. Skopyedə oynanılmış birinci matçdan sonra “Şkendiya” 1:0 hesabı ilə irəlidədir. Bu cütdə də hər şeyə bu axşam Buxarestdə aydınlıq gətiriləcək.




Səfərdəki parlaq qələbəsi tərəfdarlarında yüksək əhval-ruhiyyə və daha işıqlı gələcəyə böyük inam yaradan “Qarabağ”a evdə də rəqibindən üstün futbol sevinci yaşamaq arzusu ilə keçid alaq Konfrans Liqasına.

Burada 2-ci təsnifat mərhələsində çıxışlarımıza “Neftçi Arena”da “Zirə” ilə başladıq. Sonuncu milli çempionatımızın gümüş mükafatçısı Xorvatiyanın Split şəhərinin “Hayduk” komandası ilə görüşdə artıq yarım saatın tamamında qola sevinsə də, sürüşkən 1:0 hesabını qoruyub saxlamaq mümkün olmadı. Fasilədən sonra “Hayduk” cavab qolu ilə həm hesabı, həm də doğma şəhərində görüş ərəfəsində imkanları bərabərləşdirdi. Split qarşılaşmasında isə nələrin baş verəcəyini əvvəlcədən demək çətindir. Yalnız onu bilirik ki, xorvatlar üçün də asan olmayacaq, “Zirə” futbolçuları mərhələ adlamağa onlardan az layiq deyillər.

Tarixində ilk dəfə rəsmi beynəlxalq meydana çıxıb, avrokuboklara qoşulmasını elə ilk oyunda Yunanıstanın “Aris” klubu üzərində qələbə ilə qeyd edən “Araz Naxçıvan” hamımızı yaxşı mənada təəccübləndirdi. Elmar Baxşıyevin komandasında böyük əzmkarlığı ilə sanki “ölərəm, meydanı qol vurmadan tərk etmərəm” demək istəyən Felipe Santosla onun yeni oyundaşı, sabiq “Qarabağ”lı Patrik Andradenin cəmi 3 dəqiqə ərzində vurduqları 2 gözəl qol sonuncu Premyer Liqanın bürünc mükafatçısını 1-ci raunddan sonra hesabda irəli çıxardı (2:1). Bununla belə, hələ heç nə həll olunmayıb. Hər şey sabah axşam “Aris”in stadionunda cavab görüşündə həllini tapacaq. “Araz Naxçıvan” da tam heyətlə bunu hamıdan yaxşı bilir. İstərdik ki, israilli hakimin idarə edəcəyi oyunda beynəlxalq meydanda debütant komanda təcrübəli rəqiblə mübarizədə bir daha qətiyyətlə öz sanballı sözünü desin.

Xəsislik etməyib, “Sabah”ın da ünvanına xoş sözlərimizi əsirgəməyək. Komanda Avroliqada, əslində, bərabər mübarizədə “Çelye” (Sloveniya) səddini keçə bilməsə də, “konfransda” çıxışlarına gur səslə başlayıb. Kişinyovun “Zimbru” stadionunda Moldovanın “Petrokub” komandası üzərində iki cavabsız qolla qələbə qibtəediləcək nəticədir. Bakı matçından sonra da hamımızın “Sabah”a rəğbətlə danışması daha da yaxşı olar.

Sonda belə bir fikir də ağlıma gəlir ki, avrokuboklar oyunları zamanı sanki biz özümüz də çətin sınaqlarla təkbətək qalırıq. Həyəcanla gözləyir, sonra da izləyir, hər şey yaxşı olanda isə sevincdən özümüzü göyün 7-ci qatında hiss edirik. Bu günlər sosial şəbəkələrdə diqqətə çatdırılan səmimi rəylər də bizim insanların futbola və klublarımıza böyük sevgisinin ifadəsidir. Belə ola həmişə.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

**Hava**

## Növbəti qızmar yay günü...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 23-27, gündüz 33-38 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 756 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 40-45 faiz təşkil edəcək.**

Abşeron çimərliklərində şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulbada 26-27, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 27-28 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, gecə və səhər isə duman olacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 23-27, gündüz 35-40, bəzi yerlərdə 41 dərəcəyədək, dağlarda gecə 15-20, gündüz 28-33 dərəcə isti olacağı proqnozlaşdırılır.

***Q.QASIMOV***
***XQ***

## Xaçmazda “Şaftalı festivalı”

**Yaxın günlərdə Xaçmaz rayonunda “Şaftalı festivalı”nın keçirilməsi nəzərdə tutulub. Xaçmaz Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə keçirilən festival ölkəmizdə şaftalı istehsalının təşviqi, meyvənin ixrac potensialının artırılması, milli adət-ənənələrimizin, xalqımızın qonaqpərvərliyinin, ölkəmizin turizm imkanlarının tanıdılması məqsədi daşıyır.**



Festival çərçivəsində adət-ənənələrimizi əks etdirən kompozisiyalar, milli rəqslər, rayonda becərilən şaftalı sortları, bu meyvədən hazırlanan şirniyyatlar və içkilər nümayiş olunacaq. Qonaqlara rayonda yaşayan azsaylı xalqların mətbəxlərini və həyat tərzini əks etdirən stendlər təqdim olunacaq.

Festival avqustun 7-də Xudat şəhərində yerləşən “Food City Agrocomplex”in ərazisində təşkil olunacaq.

***XQ***

**ALLAH RƏHMƏT ELƏSİN**

“Xalq qəzeti”nin kollektivi həmkarları Azər Mustafayevə həyat yoldaşı

**ALİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3328
SİFARİŞ 1514
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00